www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 11 iyun 2025-ci il Çərşənbə № 99 (8709) Qiyməti 60 qəpik

## Xəbər

### İşıq və qazın qiyməti ilə bağlı yeni qanun

yazısı səh.12-də

## Gündəm

### Rusiyanın səfirləri Bakıda toplamasının pərdəarxası



Lavrovun müavini ilə Avropadakı rus diplomatların görüşü niyə məhz Azərbaycan paytaxtında baş tutdu - ilginc rəylər

yazısı səh.8-də

### Heydər Əliyevin dönüşü-iyun, 1993-cü il...

yazısı səh.7-də

### Putin Türkiyədən bu iki səbəbdən üz döndərdi

yazısı səh.11-də

### Ölkəmizdəki arıları oliqarxların tamahı öldürür

yazısı səh.12-də

### Bakının davam edən humanitar missiyası

yazısı səh.4-də

### Ermənilərlə Vyana görüşünə etiraz

yazısı səh.5-də

### Dron müharibəsi sərhədimizdə - biz də hazır olmalıyıq

yazısı səh.6-da

### "JF-17"lər kimləri narahat edir?

yazısı səh.4-də

### Tahir Kərimli sədrlikdən gedir

yazısı səh.5-də

### Zəngəzur üzərində diplomatik savaş güclənir

yazısı səh.6-da

### Falçı qapısı - kasıblar getmir, varlıları isə aldadırlar

yazısı səh.14-də

### Ölkəmizdə ən çox siqaret çəkən bölgə bilindi - səbəb

yazısı səh.14-də

### Qaregini təltif edən yeganə müsəlman dövləti

yazısı səh.3-də

# TALIBOVUN "HÖRÜMÇƏK TORU"NUN SONU - MİLLİ MƏCLİSİN QƏRARI...

Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişiklik Bakıya göndərilir; nələr dəyişir və niyə referendum çağırılmadı?




yazısı səh.7-də

## Bakıda təmtəraqlı ehsan qadağası - nə vaxt, harada?

QMİ bir neçə dəfə yaslarda israfçılığa yol verilməməsi barədə çağırış etsə də, paytaxtda ən dəbdəbəli hüzr mərasimləri onların nəzarətində olan mərasim zallarında keçirilir

yazısı səh.3-də



### Medinskinin açıqlamasına Bakıdan sərt reaksiyalar

yazısı səh.9-da



Ceyhun Məmmədov

### Deputat 200 balla universitetə qəbula qarşı

yazısı səh.13-də



### Paşinyan Qarabağı "itirilmiş vətən" elan etdi

yazısı səh.10-da

YENİ MÜSAVAT
N 99 (8709) 11 iyun 2025

# Bu ödənişlərdə ƏDV-nin yarısı geri qaytarılacaq



## İlham Əliyevlə Ərdoğan açılışda iştirak edəcək

**İyun ayında Türkiyənin Kahramanmaraş vilayətində zəlzələdən sonra Azərbaycanın bərpa etdiyi məhəllənin açılışı olacaq.**

Bunu jurnalistlərə açıqlamasında Türkiyənin Azərbaycandakı səfiri Birol Akgün jurnalistlərə açıqlamasında deyib.

O, tarixin hələlik məlum olmadığını bildirib.

Qeyd edək ki, açılış mərasimində Türkiyə və Azərbaycan prezidentləri Rəcəb Tayyib Ərdoğanla İlham Əliyev iştirak edəcəklər. Mərasimdə tikilən mənzillərin açarları vətəndaşlara təqdim ediləcək.



## Prezident açılış etdi

**Prezident İlham Əliyev Bakıda Dövlət Gömrük Komitəsinin yeni inzibati binasının açılışında iştirak edib. Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov dövlət başçısına yaradılan şərait barədə məlumat verib.**

Bildirilib ki, ümumi sahəsi 25 min kvadratmetr olan 18 mərtəbəli binada komitənin struktur bölmələrinin əməkdaşlarının yüksək səviyyədə çalışması üçün hərtərəfli şərait yaradılıb. Binada gömrük xidməti əməkdaşlarının iş otaqlarından başqa 500 nəfərlik konfrans zalı, 17 iclas otağı, atıcılıq tiri, idman salonu, yeməkxana, kafe var. Buradakı Hədəf Mərkəzində ölkə üzrə yük nəqliyyat vasitələrinin hərəkəti elektron xəritədə müşahidə olunur. Eyni zamanda Xəzər dənizində gəmilərə gömrük nəzarəti və gömrük postlarına real vaxt rejimində videomüşahidə həyata keçirilir. Binada süni intellekt əsaslı risk idarəetmə sistemi və informasiya texnologiyaları infrastrukturu yaradılıb. Həmçinin burada kibertəhdidlərin kəşfiyyatı və qarşısının alınması ilə bağlı xüsusi avadanlıq yerləşdirilib. Ümumilikdə yeni binada informasiya-kommunikasiya texnologiyaları geniş tətbiq olunub. Bu sistemlər mövcud və gələcək xidmətlərin artırılmasını nəzərdə tutub.



## İyulun 1-də bu şəxslər əsgərliyə aparılacaq

**İyulun 1-dən Azərbaycanda hərbi xidmətə yeni çağırış başlayır.**

"Hərbi vəzifə və hərbi xidmət haqqında" qanuna edilən dəyişiklikliyə əsasən Azərbaycanda müddətli həqiqi hərbi xidmətə çağırış yaşının yuxarı həddi 35-dən 30-a endirilib. Qanun bu ilin yanvar ayının 1-dən qüvvədədir.

Bu səbəbdən iyul ayının çağırışında 30 yaşdan yuxarı müddətli həqiqi xidmətdə olmayan şəxslər əsgərliyə cəlb olunmayacaq.

Prezident İlham Əliyevin ötən ay imzaladığı sərəncam əsasən aşağıdakı şəxslər iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılacaq:

- 2007-ci ildə doğulan və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olan şəxslər

-1995-2006-cı illərdə doğulan, yaşı 30-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməyən, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları.



**Vergi Məcəlləsinə edilən dəyişikliklərə əsasən, gələn aydan mədəniyyət sektorunda yeni vergi güzəştlərinin tətbiqinə başlanılır.**

Deputat Vüqar Bayramovun sözlərinə görə, yeni dəyişikliklərdə məqsəd daha çox sərmayələr cəlb etməklə bu sektorun inkişafını stimullaşdırmaqdır. Eyni zamanda bu mədəniyyət sektorunda bir sıra xidmətlərin xərclərinin azalmasına və eləcə də qiymətin aşağı düşməsinə səbəb ola bilər.

Artıq iyulun 1-dən teatr tamaşaları, film nümayişi, muzey ziyarəti və simfonik orkestrin konserti sahəsində göstərilən xidmətlərə görə nağdsız qaydada ödənilən ƏDV-nin 50 faizi ("ƏDVcashback") geri qaytarılacaq. Yəni mədəniyyət xidmətləri üzrə də keşbek tətbiq olunacaq.

Digər dəyişiklik mədəniyyət sektorunda 5 il müddətinə torpaq vergisindən tam, mənfəət (gəlir) vergisindən 90 faiz azadolma verilməsidir. Eyni zamanda mənfəət (gəlir) vergisi üzrə güzəştin həcmi artırılaraq 75 faiz güzəşt 90 faizə qaldırıldı. Mövcud qanunvericiliklə güzəşt verilən subyektlərin sayı 1-dən 5-ə çatdırılıb. Güzəştdən istifadə edənlərin siyahısına teatr, muzey, simfonik orkestr və film prodüseri da əlavə edilib.



## TDT-nin mülki müdafiə mexanizmi təsis ediləcək

**Türk Dövlətləri Təşkilatının mülki müdafiə mexanizmi təsis ediləcək.**

Bu barədə Milli Məclisə qanun layihəsi daxil olub.

"Türk Dövlətləri Təşkilatının mülki müdafiə mexanizminin təsis edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə" qanun layihəsi iyunun 10-da parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində müzakirə olunaraq plenar iclasa tövsiyə edilib.

## Bu universitetdə üç yeni ixtisas açıldı

**Bakı Mühəndislik Universitetinə (BMU) 2025/2026-cı tədris ili üçün bakalavriat səviyyəsində əlavə olaraq üç yeni ixtisas üzrə tələbə qəbulu həyata keçiriləcək.**

Yeni ixtisaslar sırasında qərarlaşan və 55 yer ayrılan "Data analitikası"na qəbul yalnız ingilis bölməsi üzrə aparılacaq. Digər yeni ixtisaslara-"Dekorativ-tətbiqi sənət" və "Turizm işinin təşkili"nə qəbul Azərbaycan bölməsi üzrə həyata keçiriləcək. Bu ixtisaslara müvafiq olaraq 30 və 60 yer ayrılıb. Ümumilikdə BMU-nun bakalavriat səviyyəsinə qəbul 39 ixtisas üzrə aparılacaq. Tədris olunacaq ixtisaslara görə ayrılmış 2585 plan yerinin 1745-i Azərbaycan bölməsi (əyani), 200 yer qiyabi təhsil forması, 640 yer isə ingilis bölməsinin (əyani) payına düşür.

## Ailənin tək qızı qarpızdan zəhərlənib



**Bakıda 20 yaşlı Dərya Ağayeva qarpızdan zəhərlənərək həyatını itirib.**

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyindən (TƏBİB) Modern.az-a bildirilib ki, hadisə iyunun 7-də baş verib.

Onun qıcolma vəziyyətində Kliniki Tibbi Mərkəzin Təcili və Təxirəsalınmaz Tibbi Yardım şöbəsinə hospitalizasiya edildiyi bildirilib: "Dərhal xəstəyə zəruri tibbi xidmətlər göstərilib, həkimlərin səylərinə baxmayaraq, xəstənin həyatını xilas etmək mümkün olmayıb".

Məlumata görə, 20 yaşlı gənc soyuducuda olan üç gündən qalma qarpızı yeyib. Bundan bir neçə saat sonra onun vəziyyəti pisləşib. Dərya xəstəxanada vəfat edib.

Məlumata görə, ondan sonra ailədən heç kim həmin qarpızdan yeməyib. Pirsinq və tatu ustası olan gənc qız Saatlı rayonunda dəfn olunub. O, ailənin tək qızı idi. Özündən böyük bir qardaşı var.

## Gələn il də "Formula-1" Bakıda olacaq



**Beynəlxalq Avtomobil Federasiyası və "Formula-1" təşkilatçıları 2026-cı ilin təqvimini açıqlayıblar.**

Gələn il Bakıdakı yarış sentyabrın 25-27-si aralığında baş tutacaq.

Qeyd edək ki, 2026-cı ildə "Formula-1" təqvimi yenə 24 mərhələdən ibarət olacaq. Bu il Azərbaycan Qran-prisi sentyabrın 19-21-i aralığında keçiriləcək.



## Misir Mərdanova nə olub?

**Sabiq təhsil naziri, Qərbi Azərbaycan İcması Müşahidə Şurasının sədri Misir Mərdanovun səhhətində problem yaranıb.**

Modern.az-a daxil olan məlumata görə, eks-nazir xəstəxanaya yerləşdirilib və hətta əməliyyat olunub.

Misir Mərdanov xəstəxanada olduğunu təsdiqləyib.

"Hazırda xəstəxanadayam, amma ciddi bir əməliyyat keçirməmişəm. Bu gün (dünən-red.) xəstəxanadan çıxacam. Səhhətimdə elə bir böyük problem yoxdur. Narahatlığa əsas yoxdur. İnşallah, sabah(bu gün-red.) işdə olacam".

M.Mərdanov 1992-1996-cı illərdə BDU-nun tədris işləri üzrə prorektoru, 1997-1998-ci illərdə rektoru olub.

1998-ci ildən 2013-cü ilin aprelinədək Azərbaycan Respublikasının təhsil naziri vəzifəsində çalışıb.

Misir Mərdanov hazırda Elm və Təhsil Nazirliyinin tabeliyinə verilmiş Riyaziyyat və Mexanika İnstitutunun direktoru vəzifəsində çalışır.

## Azərbaycanda qızılcaya neçə nəfər yoluxub?

**Hazırda Azərbaycanda qızılca xəstəliyi qeydə alınmayıb.**

Bu barədə Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzindən məlumat verilib.

Qeyd olunub ki, ölkədə epidemioloji vəziyyət sabitdir.

Bildirilib ki, Azərbaycanda kifayət qədər həm uşaqların vaksinasiyası üçün Qızılca-Parotit-Məxmərək peyvəndi, həm də böyük yaşlı əhali üçün Qızılca-Məxmərək peyvəndi mövcuddur.

## Çinlə viza rejimi ləğv edildi

**Azərbaycanla Çin arasında viza rejimi ləğv edilib. Prezident İlham Əliyev bununla bağlı "Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında ümumvətəndaş pasportlarına malik vətəndaşların vizadan qarşılıqlı azad edilməsi haqqında Saziş"i təsdiqləyib.**

YENİ MÜSAVAT
N 99 (8709) 11 iyun 2025

# Bakıda təmtəraqlı ehsan qadağası - nə vaxt, harada?

## QMİ bir neçə dəfə yaslarda israfçılığa yol verilməməsi barədə çağırış etsə də, paytaxtda ən dəbdəbəli hüzr mərasimləri onların nəzarətində olan mərasim zallarında keçirilir

**Samux rayonu və kəndlərində yas mərasimlərində sadə ehsan verilməsi haqda qərar verilib. Bu barədə “Trend”ə yerli sakinlər məlumat verib. Bildirilir ki, yasda təkcə çay süfrəsinə icazə verilir.**



“Teleqraf”a danışan Samux rayonunun axundu İlham Məmmədov isə bildirib ki, rayonda ehsan vermək qadağan olunmayıb, sadəcə, ağsaqqalların təşəbbüsü ilə müəyyən sadələşdirmə təklifləri irəli sürülüb. “Bir müddət idi rayon ağsaqqalları ehsanların sadələşdirilməsini təklif edirdilər. Mən də görüşlərə dəvət olundum. Yekunda belə qərara gəldik ki, dəfn və üç mərasimində ət yeməkləri ortadan götürülsün, daha sadə ehsan verilsin. Amma bu, məcburi deyil, heç bir dövlət orqanının qərarı da yoxdur”, - deyə axund açıqlayıb. İlham Məmmədov əlavə edib ki, qərar əhalinin əksəriyyəti tərəfindən müsbət qarşılanıb, çünki çox zaman insanlar maddi sıxıntı səbəbilə borc və çətinliklərə düşürdülər.

“Əzizi rəhmətə gedən şəxs bir də borc içində qalır. Sadələşdirmə bu baxımdan faydalıdır. Amma təbii ki, narazı qalanlar da var. Yalan məlumatlar yayılır ki, guya bu qərar məcburidir, cərimə var - bu, qətiyyən doğru deyil”, - deyə axund söyləyib.

Məlum olduğu kimi, hələ 2014-cü ildə Azərbaycanda israfçılığın qarşısını almaq məqsədilə dövlət hüzr mərasimlərində ehsan verilməsini xüsusi nəzarətə götürdü. Yeni təşəbbüs cəmiyyətin müxtəlif təbəqələri tərəfindən də dəstəklənirdi və rayon icra hakimiyyətlərində hüzrdə ancaq çay, halva və xurma verilməsinə nəzarət etmək üçün xüsusi komissiyalar belə yaradılmışdı. Bu addım müəyyən nəticələr versə də, tezliklə hüzr yerləri ilə bağlı bir sıra narazılıqlara yol açdı. “Mənə atamın yasında ehsan verməyi kimdə qadağan edə bilməz” deyib yerli hakimiyyətlə davaya çıxanlar oldu. Bəzi rayonlarında yas mərasimlərində ehsan süfrələrinin əsasən xurma, halva və çayla məhdudlaşdırıldığı söylənilir, amma son illər yenidən bu israfçılığa qayıdış müşahidə olunmaqdadır.

Qafqaz Müsəlmanları İdarəsi bir neçə dəfə yaslarda israfçılığa yol verilməməsi barədə çağırış etsə də, iddia olunurdu ki, ölkədə yas məclislərinin keçirilməsi qaydalarına dəyişiklik etməsi Şeyxülislam Allahşükür Paşazadənin ciddi narazılığına səbəb olub. Bu baxımdan qərarın bu günədək icrasız qalmasında QMİ sədrini günahlandıranlar da var. Qeyd edək ki, hazırda Bakıda QMİ-nin nəzarətində olan əksər məscidlərdəki mərasim evlərində dəbdəbəli ehsan süfrələri açılmaqda davam edir. Sirr deyil ki, Bakıda ən dəbdəbəli yas mərasimləri QMİ-nin nəzarətində olan mərasim zallarında baş tutur. Əsasən də vəzifəli şəxslərin, onların yaxınlarının, imkanlı və nüfuzlu şəxslərin yas mərasimləri. Heç bir kasıb və imkansız adam bu məscidlərin mərasim zallarında yas mərasimi təşkil edə bilməz. Bildirilir ki, məhz paytaxtda bu qadağanın işləməsi mühüm təsiri ola bilərdi. Xüsusilə Bakıda ehsanın sadələşdirilməsi üçün hansı addımlar atılmalıdır?

**“Bakı” Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov “Yeni Müsavat”a deyib ki, ilk baxışdan elə görünür ki, Bakı sakinləri bu qərarı ikiəlli qarşılayar. Amma görürük ki, belə deyil:** “Bakıda yas mərasimləri ailələr üçün həm maddi, həm də mənəvi ağırlığa çevrilib. Yas mərasimləri restoran səviyyəsində keçirilir, dəbdəbəli süfrələr açılır, zallarda "5 ulduzlu" xidmət təqdim edilir. Qafqaz Müsəlmanları İdarəsi bir tərəfdən belə mərasimlərin sadələşdirilməsinə, özü də dəfələrlə bu israfçılığa qarşı çağırışlar edir. Digər tərəfdən də elə bu çağırışların verildiyi binada israfçılıq baş verir. Əlbəttə ki, bu məscidlərdə kasıb və ortabab ailələrə yas mərasimi keçirmək qismət olmur. Çünki qiymətlər baha, qaydalar isə “yazılmamış qanunlarla” tənzimlənir. Kim bahalı süfrə açmırsa, hörmətdən düşmüş sayılır. Nəticə odur ki, israfçılıq ənənəsi qalır. Hələ 2014-cü ildən bu yana QMİ və icra hakimiyyətləri yasların sadələşdirilməsini nəzarətə götürdü. Xüsusi komissiyalar yaradıldı, bölgələrdə çay, halva və xurma süfrəsinə keçid edildi. Amma yenə də qaydalar işləmədi. Yeni Azərbaycanda yas mərasimləri artıq dini rituallardan çıxıb, sosial status və nüfuz nümayişinə çevrilib".

**Natiq Ələsgərov deyib ki, hazırda o qədər absurd vəziyyət yaranıb ki, bəzən məscid zallarında özünə yer tapmayanlar məcbur restoranlara üz tutur:** “Orada isə süfrələr bir neçə min manatlıq hesaba başa gəlir. Yas sahibinə isə bir də ömrü boyu bu borcu ödəmək qalır. Əgər QMİ rəsmi şəkildə bu məscidlərdə "yalnız sadə süfrə" qərarı qəbul etsə, paytaxtın 80 faiz yas mərasimi dəyişəcək. Bununla həm də bölgələrə nümunə göstərilmiş olacaq. 2-ci addım kimi icra hakimiyyətlərinin qərarı olmalıdır. Bakı Şəhər İcra Hakimiyyəti konkret qərar qəbul etməlidir ki, yas mərasimlərinin menyusu məhdudlaşdırılsın, mərasim evləri yalnız bu menyuya uyğun xidmət göstərsin. Əks halda, təşkilatçılar və obyekt sahibləri cərimələnsin. Eyni zamanda maarifləndirmə kampaniyaları aparılmalıdır. Hər cümə xütbəsində, televiziyada, sosial şəbəkələrdə israfçılığın dini və ictimai ziyanı izah edilməlidir. Əks halda, “filankəs belə ehsan verdi, mən necə verməyim” düşüncəsinə uyğun ehsan veriləcək".

**Natiq Ələsgərov deyib ki, vəzifə sahibləri, imkanlı təbəqə bu mövzuda dəyişiklik istəmir:** “Hər il onlarla ailə yas borcuna görə kredit götürür, əmlak satır, dost-tanışdan borc istəyir. Məgər dini mərasim adamı borca salmaq üçündür? İmkanlı təbəqə bu məsələdə səmimi addım atmayınca, cəmiyyət də dəyişməyəcək. Əgər həqiqətən dini israfçılığa son qoymaq istəyiriksə, dəyişiklik birbaşa Bakıdan, QMİ-nin məclis zallarından başlamalıdır. Sadə ehsan qaydalarına ilk növbədə bu qrup əməl edərsə, cəmiyyət də arxasınca gələcək. Əks halda, regionlardakı təşəbbüslər də effekt verməyəcək”.

❑ **Elşən MƏMMƏDƏLİYEV,**
**“Yeni Müsavat”**

# Həccə gedən zəvvarların sayı niyə azalıb?



**Builki Həcc ziyarətinə 1 milyon 673 min 230 zəvvar qatılıb.**

Novator.az-ın məlumatına görə, “Assoşieyted Press” (“Associated Press”) agentliyi yazır ki, pandemiya dövrünü çıxsaq, bu, son 30 ilin ən aşağı göstəricisidir.

2024-cü ildə zəvvarların sayı 2025-ci illə müqayisədə təqribən 160 min nəfər çox olub.

Koronavirus pandemiyası ilə əlaqədar 2020-2022-ci illərdə Səudiyyə Ərəbistanı Həcc ziyarətinə məhdud sayda zəvvar buraxıb.

Pandemiyadan sonra ilk məhdudiyyətsiz ziyarət 2023-cü ildə baş tutub. O zaman da zəvvarların sayının 2025-ci ildəkindən çox olduğu, pandemiyadan əvvəlki dövrdə isə Həcc ziyarətində hər il adətən 2 milyondan artıq müsəlmanın iştirak etdiyi vurğulanır.

“Assoşieyted Press”in bildirdiyinə görə, son 30 ildə rekord göstərici 2012-ci ildə qeydə alınıb: 3 milyon 160 min zəvvar.

Builki ziyarətdə iştirak edən 1 milyon 673 min 230 zəvvarın böyük əksəriyyətinin Səudiyyə Ərəbistanına xarici ölkələrdən gəldiyi, yəni Səudiyyə Ərəbistanının deyil, başqa ölkələrin vətəndaşları olduğu bildirilir.

Zəvvarların sayının pandemiya dövrünü çıxmaqla son 30 ildə ən aşağı səviyyəyə düşməsinin səbəblərinə gəlincə, “Assoşieyted Press” Səudiyyə rəsmilərinin bu barədə açıqlama vermədiyinə diqqət çəkir.

Agentlik yazır ki, bəzi müsəlmanların Həcc ziyarətində iştirakına, çox güman, dünyada inflyasiyanın, iqtisadi böhranın güclənməsi mane olub. Havanın həddən artıq isti keçməsinin, əcnəbilərin Səudiyyə Ərəbistanına viza alması prosedurunun çətinləşməsinin də zəvvar sayının azalmasında rol oynaya biləcəyi vurğulanır.

# Qaregini təltif edən yeganə müsəlman dövləti



**Son günlər adı Ermənistan KİV-lərinin gündəmindən düşməyən II Qareginin əsl adı Ktriç Nersisyan ermənilərin 132-ci katolikosudur. O, 27 oktyabr 1999-cu ildən Erməni Apostol Kilsəsinə rəhbərlik edir.**

Ktriç Nersisyan 21 avqust 1951-ci ildə Ermənistanın Eçmiədzin rayonunun Voskehat kəndində anadan olub. 1965-ci ildə Eçmiədzin İlahiyyat Seminariyasına daxil olub, 1971-ci ildə oranı bitirib, daha sonra həmin seminariyada müəllim işləyib. 1970-ci ildə diakon (kahinliyin ilk, ən aşağı səviyyəsində kilsədə xidmət edən şəxs), 1972-ci ildə isə keşiş təyin edilib. Daha sonra katolikos I Vazgenin əmri ilə teoloji təhsilini davam etdirmək üçün Avstriyanın paytaxtı Vyanaya göndərilib.

Ktriç Nersisyan dini təhsilini 1975-ci ildə Almaniyanın Bonn Universitetində davam etdirib.

Ktriç Nersisyan 1980-ci ilin martından 1999-cu il iyulun 4-nə kimi bütün ermənilərin katolikosu I Vazgenin baş vikarı (dini vəzifə) olub və arxiyepiskop rütbəsinə yüksəlib.

27 oktyabr 1999-cu ildə katolikos I Qareginin ölümündən sonra bütün ermənilərin 132-ci patriarxı və katolikosu seçib.

Bundan sonra o, II Qaregin adlandırılıb.

II Qareginin aldığı medallardan biri ona müsəlman dövlətində verilib. Bütün ermənilərin katalikosu “Viflehem medalı”na 2000-ci ildə Fələstin dövlətinin prezidenti Yasir Ərəfat tərəfindən layiq görülüb.

Fələstin Muxtariyyəti bütün ermənilərin katalikosunu təltif edən yeganə müsəlman dövlətidir.

# Pakistandan alacağımız "JF-17"lər kimləri narahat edir?

## "Forbes": "Azərbaycanda qırıcıların sayı Ermənistandan 10 dəfə çoxdur"

**"Azərbaycan Silahlı Qüvvələrinin inventarında olan silah-sursat və digər avadanlıqların yenilənməsi prosesi uğurla davam edir. Bu xüsusda digər tərəfdaş ölkələr kimi Pakistandan 40 ədəd dördüncü nəsil "JF-17 Thunder" qırıcısının alınması nəzərdə tutulub. Ordumuz bundan əvvəlki sifarişini genişləndirərək, "JF-17" təyyarələrinin sayını 16-dan 40-a çatdırmağı hədəfləyib. Bu təyyarələr müasir standartlara cavab verən "F-16" qırıcıları ilə müqayisə olunur. Məhz bu baxımdan da Pakistan və Çin tərəfindən birgə istehsal olunan "JF-17 Thunder" təyyarələrinə son illər müxtəlif ölkələr tərəfindən maraq artıb".**

Bu sözləri "Teleqraf"a hərbi ekspert, ehtiyatda olan polkovnik Üzeyir Cəfərov deyib.

Ekspert bildirib ki, ötən ilin sentyabrından Azərbaycan Pakistandan "JF-17" təyyarələrinin ilkin partiyasını qəbul edib: "Azərbaycan bu təyyarələrin sayını artırmaqla heç bir beynəlxalq kvotanı aşmayıb. Ölkəmizə neçə ədəd hava hücumundan müdafiə və hərbi hava qüvvələrinin döyüş hazırlığını təmin etmək üçün təyyarə və helikopter lazımdırsa, bunların hamısı alınacaq. Sözsüz ki, bu məsələdə Türkiyə, Pakistan, Çinlə yanaşı, müxtəlif ölkələrlə əməkdaşlıq edilir".

**Polkovnik hesab edir ki, Azərbaycanın Hərbi Hava Qüvvələrinin arsenalını yenilənməsindən kimlərsə narahatlıq keçirməməlidir:** "Hətta bəziləri iddia edir ki, Azərbaycan öz ordusunun arsenalını tamamilə yeniləyərək, Rusiya istehsalı olan silah-sursatı müasir standartlara cavab verən inventarla əvəzləyir. Təbii ki, bundan narahat olanların mövqeyi özünü çox da gecikdirmədi. Rusiya Federasiyası Prezidentinin köməkçisi Vladimir Medinskinin absurd bəyanatı və ondan öncə İrəvanda səfərdə olarkən xarici işlər naziri Sergey Lavrovun ermənilərə "Qarabağı rus silahları ilə tutmuşdunuz" mesajları heç də təsadüfi deyilməmişdi. Bütün bunlara baxmayaraq, Azərbaycan Ordusunun öz arsenalında olan Rusiya istehsalı hərbi vasitələri dəyişməsi, sadəcə olaraq, zamanın tələbidir".

Yeri gəlmişkən, ABŞ-ın dünyaca məşhur "Forbes" jurnalında "How Armenia Might Respond To Azerbaijan's JF-17 Fighter Acquisition" (Ermənistan Azərbaycanın JF-17 qırıcılarını almasına necə cavab verə bilər?) adlı irihəcmli məqalə dərc olunub.

Məqalənin müəllifi Pol İddon yazır ki, Pakistan hökuməti cümə günü sosial media platforması X-də (əvvəlki Twitter) təsdiqləyib ki, Azərbaycan 4,6 milyard dollarlıq müdafiə sazişi çərçivəsində "JF-17" qırıcılarının sifarişini 16-dan 40-a qaldırıb. "JF-17C Block III" qırıcısının 4.5-ci nəsil olması ilə diqqət çəkən müəllif qeyd edir ki, bunula da Azərbaycan qırıcıların sayı baxımından Ermənistanı 10 dəfə geridə qoyub. Azərbaycanın xeyli köhnəlmiş olsa da, keyfiyyətli təmirdən çıxmış "MiQ-29" qırıcı donanmasını, İsrail və Türkiyə istehsalı olan qabaqcıl dronlarını nəzərə almasaq belə, 40 ədəd "JF-17C Block III" qırıcısı rəsmi Bakıya ciddi üstünlüklər verir.



**Ermənistanın vəziyyətdən çıxmaq məqsədilə Fransaya Dassault Rafale qırıcıları üçün müraciət edib-etməyəcəyi bəlli deyil. "Forbes" yazır:** "İrəvan çox güman ki, bir neçə istiqamətdə cəhdlər göstərəcək. Lakin Fransanın "Rafale" təyyarələrindən daha sərfəli olduğunu nəzərə alsaq, Hindistanda istehsal olunan "Su-30MKI"lərin alınmasına üstünlük veriləcək". Hindistan və Pakistan arasında keçən ay yaşanan gərginliklə bağlı bəzi məsələlər hələ də tam aydın olmasa da, Hindistanın "Rafale" donanmasının kifayət qədər güclü performans göstərməməsi ilə bağlı ittihamlar Ermənistanın seçimlərinə təsir edə bilər".

❑ **"Yeni Müsavat"**

# Bakının humanitar missiyası - Ukraynadan sonra Suriya...

## Deputat: "Dəməşq və Homs bölgələrində əhaliyə göstərilən köməkliklər ondan xəbər verir ki..."

**Azərbaycan humanizm prinsiplərinə söykənərək, ikitərəfli və çoxtərəfli əsasda dünyanın bir çox ölkəsinə humanitar yardımlar göstərir. Son olaraq 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Ukraynaya 1 milyon ABŞ dollarının manat ekvivalentində vəsait ayrılıb.**



Azərbaycanın Ukraynaya humanitar dəstək göstərən ilk ölkələrdən biri olmaqla, bu günədək dərman, qida, elektrik generatorları və s. daxil, ümumilikdə 40 milyon ABŞ dolları dəyərində yardım edib. Bununla yanaşı, ölkəmiz tərəfindən Ukraynadakı münaqişədən əziyyət çəkən uşaqlar üçün tibbi və sosial-psixoloji reabilitasiya proqramı həyata keçirilir. Azərbaycan Ukraynada infrastrukturun bərpası istiqamətində layihələrə dəstək verir.

Qurban bayramında Azərbaycan Suriyada növbəti xeyriyyə aksiyası keçirib. Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyi məlumat yayıb. Bu il iyunun 7-8-də müqəddəs Qurban bayramı münasibətilə "Qardaş Suriya xalqına Azərbaycan xalqından ən səmimi təbriklər" şüarı altında əhəmiyyətli dağıntılara məruz qalmış Dəməşq şəhəri, Homs əyaləti və onun ətraf ərazilərində xeyriyyə aksiyası təşkil olunub.

Azərbaycanın Suriyadakı səfirliyinin təşəbbüsü və təşkilatçılığı, eləcə də Azərbaycan Beynəlxalq İnkişafa Yardım Agentliyinin (AİDA) dəstəyi ilə müharibədən zərərçəkmiş 320 ailəyə qurbanlıq heyvanların əti verilib. Xeyriyyə aksiyasının təşkilində Suriya Həyat Fondu könüllü qrupları da iştirak edib.

Qurban bayramının ilk günü Dəməşq, ertəsi gün isə Homs ətrafındakı bölgələrdə ərəb, türkmən, çərkəz və ələvi ailələrinə sovqat verilib. Bu ailələrin əksəriyyəti uzun sürən vətəndaş müharibəsi nəticəsində ərlərini itirmiş çoxuşaqlı qadınlar olub. İki gün ərzində 1500-ə yaxın insan göstərilən yardımdan yararlanıb. Ailələr Azərbaycan xalqına və dövlətinə dərin minnətdarlıqlarını bildirib, xoş arzularını çatdırıblar.

Prezident İlham Əliyevin müvafiq tapşırıqları əsasında humanitar tədbirlərin davam etdirilməsi nəzərdə tutulur. Xatırladaq ki, ötən ilin sonunda Azərbaycan Suriya xalqına 200 ton humanitar yardım göndərmişdi. Bundan əlavə, AİDA-nın dəstəyi və Suriyadakı səfirliyin təşkilatçılığı ilə bu il martın 25-27-də Dəməşqdə 1000 kimsəsiz uşaq üçün iftar süfrəsi təşkil olunub.

Qeyd edək ki, fevral ayında Azərbaycan 12 illik fasilədən sonra Suriyanın paytaxtı Dəməşqdəki səfirliyin fəaliyyətini bərpa etmiş, müvəqqəti işlər üzrə vəkil Elnur Şahhüseynov Dəməşqdəki səfirlikdə fəaliyyətinə başlayıb. Azərbaycan Suriya məsələsində Türkiyə ilə çiyin-çiyinə çalışır və bunu ilk günlərdən etibarən bəyan edib. Bunu həmçinin son aylarda baş tutan səfərlər və görüşlər kontekstində də sezmək mümkündür. Antalya Forumu çərçivəsində Prezident İlham Əliyev və Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əş-Şaraa arasında ilk görüş ikitərəfli əlaqələrdə yeni müsbət təkan oldu. Bundan əlavə, Bakı bu istiqamətdə ciddi diplomatik fəaliyyət də göstərir. Belə ki, Bakıda İsrail-Suriya, Türkiyə-İsrail danışıqları da olub.

**Demokratik Maarifçilik Partiyasının sədri, deputat Elşən Musayev "Yeni Müsavat"da dövlətimizin hər zaman belə mövzulara xüsusi həssaslıqla yanaşdığını qeyd etdi:** "Öncəliklə onu qeyd edim ki, humanitar siyasət hər zaman Azərbaycanın dövlət siyasətinin əsas prioritetlərindən olub və ölkəmiz bu siyasətə daim sadiq qalıb. Həmin strategiyanın ən gözəl, ən bariz nümunələrindən biri isə dövlətimizin pandemiya dövründə sərgilədiyi fəaliyyətdir. Yeni məlum proses davamlı xarakter daşıyır və Azərbaycan öz xoşməramlı addımları ilə hər zaman, hər kəsə örnək olub. Ayrıca, diqqətinizi çəkmək istədiyim xüsusi bir məqam da var: Uşaqlar! Bu dünyanın ən günahsız, ən saf varlıqları. Hansı ki, humanitar siyasətin başlıca prinsipi məhz onların mühafizəsi, qorunması olmalıdır və bu istiqamətdə də dövlətimiz yetərincə böyük işlər görür. Yeqin münaqişədən əziyyət çəkən ukraynalı uşaqlar üçün Azərbaycan dövlətinin hazırladığı və qısa müddət ərzində reallaşdırdığı "tibbi və sosial-psixoloji reabilitasiya proqramları" hər kəsin xatirindədir. Bax, bu təşəbbüs dünya və bəşəriyyət adına yeni bir addım idi və ona görə də hamı tərəfindən obrazlı desək, ayaq üstdə alqışlanır. Eləcə də Suriyalı uşaqlara edilən yardımlar. Həm də minlərlə uşağa! Yaşadığımız həyatda uşaq üzü güldürməkdən gözəl, müqəddəs nəsə varmı? İnanmıram. Çünki onlar müharibənin, münaqişənin, dövlətlərarası problemin, siyasi çəkişmələrin nə olduğunu bilmirlər. Və çox təəssüf ki, həmin uşaqların müəyyən bir qismi bu mövzuları, ümumiyyətlə heç zaman da bilmədən, dərk etmədən həyatla vidalaşırlar. Mən əsasən uşaqlardan danışdım. Amma heç şübhəsiz ki, Azərbaycanın humanitar siyasəti daha geniş məsştabdadır və son olaraq Suriyaya edilən yardımlar, Dəməşq və Homs bölgələrində əhaliyə göstərilən köməkliklər də ondan xəbər verir ki, bizlər üçün insan faktoru hər zaman olduğu kimi ən əsas, ən vacib faktor olaraq qalır və bundan sonra da dövlətimiz belə mövzulara daim xüsusi həssaslıqla yanaşacaq".

**AĞ Partiya başqanının I müavini, siyasi şərhçi Əhəd Məmmədli postsovet məkanında Ukraynaya ən çox dəstək verən ölkə Azərbaycan olduğunu söylədi:** "2020-ci il müharibəsindən sonra Azərbaycanın dünyada nüfuzu qalxdı. Artıq Azərbaycan təkcə neft ölkəsi kimi deyil, həm də güclü ordusu olan bir dövlət kimi qəbul olunmağa başlanıb. Təkcə varlı deyil, həm də güclü olmaq lazımdır ki, sənə hörmət etsinlər. Güclü dövlətin dəstəyi də hər kəsə lazımdır. Azərbaycan əvvəllər də humanitar yardımlar edirdi, amma indiki durumumuz daha fərqlidir. Çünki yuxarıda qeyd etdiyim kimi, müharibədə qalib gəlmiş dövlət statusundayıq. İndi Azərbaycanın dəstəyi birin-ikiyə bərabərdir. Yəni daha önəmli və əhəmiyyətlidir. Postsovet məkanında Ukraynaya ən çox dəstək verən ölkə Azərbaycandır. Düzdür, Ukraynada bunun qədrini o qədər də çox bilmirlər. Görünür, həm də gördüyümüz işlərin təbliğatını yaxşı apara bilmirik. Hesab edirəm ki, Suriya ilə vəziyyət daha səmərəli olacaq. Suriya qardaş müsəlman ölkəsidir. Həm də təbii müttəfiqimiz Türkiyə ilə çox yaxındır. Ümumiyyətlə, Azərbaycanın başqa dövlətlərə yardımları həm də ölkəmizin nüfuzunun artmasına gətirib çıxarır. Üstəlik, yardım etdiyimiz yerlərə təsir rıçaqlarımızı artırır. Ona görə bu cür halları müsbət qiymətləndirirəm. Bu məsələdə zəif yerimiz gördüyümüz işin təbliğatıdır. Nümunə kimi Ukraynanı yuxarıda qeyd etdim. Səfirliklər, konsulluqlarımız bu işdə axsayırlar. Diaspora komitəmiz də bu məsələdə sorumludur. Güman edirəm ki, bu yöndə çatışmazlıqlarımız tezliklə aradan qalxacaq".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Ermənilərin Hacılı və Nurullayevlə Vyana görüşünə etiraz

## YAP-çı deputatın “Qarabağ məsələsini müzakirə etməyə nə müxalifət partiyalarının, nə də heç kimin haqqı yoxdur” fikrinə hansı partiya sədrləri dəstək verdi?



**Avstriyanın paytaxtı Vyanada Azərbaycan və Ermənistan siyasi partiyalarının iştirakı ilə “Qarabağ müzakirəsi” keçirilib. Azərbaycandan görüşdə Milli Cəbhə Partiyasının sədri, deputat Razi Nurullayev, həmçinin Müsavat Partiyasının Məclis sədri Arif Hacılı iştirak edib. Ermənistanı isə müxalifətdə olan “İşıqlı Ermənistan” Partiyasının sədri Edmon Marukyan və hakim “Vətəndaş müqaviləsi” Partiyasının üzvü, Ermənistan parlamentinin deputatı Arusya Culhakyan təmsil edib.**

Belə bir görüş hər il Vyana şəhərində Avstriya Milli Müdafiə Akademiyasında “International Center for European Union Research”ün (Avropa İttifaqı Beynəlxalq Araşdırmalar Mərkəzi) təşkilatçılığı ilə keçirilir. Bu tədbirdə təşkilatın rəhbərliyi və təmsilçiləri də iştirak edir.

**Görüş barədə Arif Hacılının belə bir açıqlaması yayılıb:** “Bəzi saytlarda "Vyanada Azərbaycan və Ermənistan müxalifəti görüşdü" başlıqlı dəqiqləşdirilməmiş məlumata əsaslanan yazılarla birilləri üzərimə növbəti böhtan kampaniyasına başlayıb. Bir neçə ildir ki, Avstriyanın beynəlxalq Şərqi Avropa Araşdırmaları üzrə Beynəlxalq İnstitutu tərəfindən Vyana şəhərində təşkil olunan debatlara dəvət alıram. İştirak etdiyim debatlar əsasən Cənubi Qafqaz regionunda konfliktlər və vəziyyətdən çıxış yolları barədədir. Bu tədbirlərə müzakirə olunan mövzulara uyğun olaraq müxtəlif siyasi ekspertlər, erməni siyasətçiləri və Azərbaycandan da adətən Milli Məclis üzvü olan daha bir nəfər dəvət olunur. Yəni mən bir neçə ildir ki, bu prosesdə iştirak edirəm və bu müddət ərzində həmin debatlara adətən Azərbaycan Milli Məclisin üzvü olan müxtəlif şəxslər dəvət olunub. Bu, bəzilərinin qeyd etdiyi kimi, müxalifətlərin görüşü deyil. Əgər mənim daimi iştirak etdiyim tədbirlərə təşkilatçı tərəf öz mülahizələri əsasında və ya mənə məlum olmayan prosedurlarla bəzən başqa kimlərisə dəvət edirsə, bu artıq mənim sorunum deyil".

**Razi Nurullayev isə görüşlə bağlı maraqlı təfərrüatlar açıqlayıb:** “Bu görüşdə də Azərbaycanla Ermənistan arasında sülh məsələlərinə dair müzakirələr aparıldı. Təbii ki, xeyli mübahisələr oldu və bəzən qarşılıqlı ittihamlara da keçdi. Ermənistan müxalifəti barışmaz və qərəzli mövqeyi ilə seçilir. Onlar düşünürlər ki, baş nazir Nikol Paşinyan saysız-hesabsız güzəştlərə gedib və bunun fonunda Azərbaycan yenə də sülh müqaviləsini imzalamağı uzadır. Amma biz bir daha qeyd etdik ki, Ermənistan özünü zəfər çalan Azərbaycanla bərabər tutur və az qala qalib ölkə kimi hələ şərtlər də irəli sürür”. **Deputat deyib ki, Ermənistan müxalifəti danışıqları Rusiya masasına yatırmaqda və prosesi təzələmək fikrindədir:** “Açıqca deyirlər ki, biz hakimiyyətə gələn kimi Paşinyanın atdığı bütün addımları sıfırlayacağıq. Onlar Rusiyanın prosesə qoşulması ilə yanaşı, məsələlərin yenidən Minsk Qrupu çərçivəsinə qayıtmasını, müzakirələr aparılmasını, Qarabağdan könüllü getmiş insanların geri dönüşünün təmin edilməsini istəyirlər. Biz də bir daha qeyd etdik ki, onlar Qarabağdan öz istəkləri ilə gedib. Getməklərinin səbəbi Azərbaycan vətəndaşlığını qəbul etməmələri ilə bağlı olub. Sadəcə olaraq, erməni müxalifətinin də istəyi odur ki, bu məsələ gündəmdən çıxmasın. Onların Azərbaycana qarşı ərazi iddiaları var. Erməni müxalifəti həmçinin iki ölkə arasında üçüncü ölkənin, yəni zəmanətverici bir qüvvənin olmasını istəyir”.

**Yeni Azərbaycan Partiyasından olan deputat Azər Badamov** Modern.az-a açıqlamasında bildirib ki, görüşlər zamanı Qarabağ məsələsini müzakirə etməyə nə müxalifət partiyalarının, nə də heç kimin haqqı yoxdur: “Bu gün Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi imzalanmadan belə görüşlərlə bir müsbət irəliləyişin əldə olunacağını düşünmürəm”.

**Azad Vətən Partiyasının sədri Akif Nağı “Yeni Müsavat”a bildirdi ki, bu cür məsələnin müzakirə mövzusu olduğu görüşlərə münasibəti mənfidir:** “Ermənilərlə Qarabağ mövzusunda müzakirə aparmaq tamamilə mənasızdır. O görüşdə iştirak edən şəxslər açıqlamalar yayaraq öz hərəkətlərinə bəraət qazandırmağa çalışırlar. Elə bir rəy yaratmağa çalışırlar ki, sanki onlara hələ bir minnətdarlıq da edilməlidir. Təəssüf ki, torpaqlarımız işğal altında olanda bizim bəzi müxalifət partiyalarının nümayəndələri ermənilərlə görüşlər keçirirdilər və deyirdilər ki, bu görüşlər guya faydamızadır. Zaman göstərdi ki, o cür görüşlərlə erməniləri işğalçılıqdan əl çəkdirmək mümkün deyil. Biz bunu öncədən deyirdik, lakin bəziləri görüşlərini davam etdirirdi. İndiki reallıq isə Qarabağ mövzusunun xaricdə ermənilərlə müzakirə edilməsini tamamilə inkar edir. Bu mövzuda müzakirə ermənilərin marağına, hansısa mərkəzlərin maraqlarına xidmət edir. Biz erməni hiyləsinə aldanmamalıyıq. Ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi dəhşətli cinayətləri unutmamalıyıq. Bunu unutmaq və ermənilərin xeyrinə olan hər hansı layihədə iştirak etmək xəyanətə bərabər hərəkət kimi qəbul olunmalıdır”.

**AĞ Partiyanın sədri Tural Abbaslı bildirdi ki, artıq Qarabağ məsələsi həllini tapıb və bu məsələnin müzakirə olunası tərəfi qalmayıb, çünki məsələ bitib:** “Biz Zəngəzur məsələsinin müzakirəsini müxtəlif beynəlxalq platformalarda gündəmə gətirə bilərik. Bitməmiş məsə Zəngəzur məsələsidir. Qarabağ məsələsi isə artıq həll edilib tarixə çevrilib. Burada müzakirə ediləsi bir şey yoxdur. Xüsusilə də Avropada hansısa tədbirlərdə Ermənistan deputatları ilə artıq mövcud olmayan Qarabağ məsələsinin müzakirə edilməsinin məntiqi yoxdur. Bu cür müzakirə artıq mövcud olmayan məsələnin aktual saxlanmasına xidmət edə bilər ki, bu da ermənilərə sərf edir. Buna rəvac verməyi düzgün hesab eləmirəm. Təəssüf ki, Azərbaycandan bəzi partiyalar Avropada hansısa Conla görüşmək üçün istənilən tədbirə həvəslə gedirlər və həmin tədbirdə müzakirəyə çıxarılan mövzu isə bəlli olur ki, ermənilərə lazımdır. Adama sual edərlər ki, gedib orada nəyi müzakirə edirsən? Qarabağ məsələsinin həll edilmədiyini demək istəyirsən? Ermənilərin geri qayıtmasını istəyirsən? Mən ermənilərlə o tipli görüşlərin əleyhinəyəm. Mənasız və ya zərərli görüşlərdə hansısa partiya sədri, ictimai birlik sədri statusunda iştirak etmək bizə xeyir gətirməz. Bu cür görüşlər ermənilərin Azərbaycana qarşı siyasətlərinə dolayısı ilə dəstək vermiş olur”.

❑ **Etibar SEYİDAĞA, “Yeni Müsavat”**



## Tahir Kərimli sədrlikdən gedir

**Tahir Kərimli Vəhdət Partiyasının (VP) sədrliyindən gedir. Bu barədə “Qaynarinfo”ya açıqlamasında VP-nin təşkilat məsələləri üzrə sədr müavini Fəxrəddin Ağazadə deyib. Onun sözlərinə görə, sədr yerini gənclərə vermək istəyir:**

“Tahir bəy deyir ki, bu günə kimi işlədik, daha bəsdir, indi yerimizi gənclərə verməliyik. Partiyaya yeni nəfəs gəlsin. Özü partiyadan getmir, hər hansı bir vəzifədə fəaliyyətini davam etdirəcək”.

Fəxrəddin Ağazadənin sözlərinə görə, əgər qarşıdakı illərdə parlament seçkiləri keçirilsə, Tahir Kərimli namizədliyini irəli sürəcək.

Məlumata görə, Tahir Kərimli Vəhdət Partiyasının sədri vəzifəsini müavinlərindən birinə etibar edəcək.

## Deputatla bağlı araşdırma başladı



Aleksey Roslikov

**Latviyanın Dövlət Təhlükəsizliyi Xidmətində ölkə parlamentinin (Seym) deputatı Aleksey Roslikovla bağlı təhqiqata başlanıb. Novator.az Latviya İctimai Teleradiosunun internet səhifəsinə istinadla xəbər verir ki, deputat etnik nifaq salmaq cəhdində və Rusiyanın Latviya əleyhinə apardığı fəaliyyətə dəstək verməkdə şübhəli bilinir.**

Əsas kimi Roslikovun iyunun 5-i Seymin iclasında müzakirəyə qoyulan “Ruslaşdırmanın nəticələrinin aradan qaldırılması haqqında bəyannamə”nin layihəsini tənqid edərkən verdiyi açıqlamalar götürülür.

“Ruslaşdırmanın nəticələrinin aradan qaldırılması haqqında bəyannamə” layihəsi sovet dövründə Latviyada latış dilinin statusunu zəiflətmək niyyəti güdmüş ruslaşdırma siyasətinin nəticələrini aradan qaldırmağı hədəfləyir və bununla bağlı bir sıra öhdəlikləri müəyyənləşdirir. Layihədə ictimai məkanlarda rus dilindən istifadənin məhdudlaşdırılması üçün addımların atılması təklifləri də yer alır.

Parlamentdə müzakirə zamanı Roslikov bəyannamə layihəsinin iclasın gündəliyinə salınmasına qarşı çıxıb. Üstəlik, parlament tribunasından latış dilində söylədiyi nitqini rus dilində “Biz çoxuq və bizim dilimiz rus dilidir” deməklə və Seymin digər deputatlarına qolu ilə iki dəfə ədəbsiz jest göstərməklə yekunlaşdırıb, bundan sonra nümayişkaranə surətdə tribunanı tərk edib.

Deputatlar onun iclasda iştirakını davam etdirməsinə imkan verməyiblər. 63 deputatın səsi ilə Aleksey Roslikov zaldan çıxarılıb və onun parlament müzakirələrində iştirakına bir günlük yasaq qoyulub.

Roslikov ilk dəfə deyil latviyalılara meydan oxuyur. Dövlət Təhlükəsizliyi Xidmətində indiyədək bir neçə dəfə onunla profilaktik söhbət aparılıb, deputata qanun qarşısında məsuliyyəti barədə xəbərdarlıqlar edilib.

İyunun 5-dəki iclasdan sonra isə Aleksey Roslikovla bağlı rəsmi şəkildə təhqiqata başlanıb.

YENİ MÜSAVAT
N 99 (8709) 11 iyun 2025

# Dron müharibəsi sərhədimizdə - biz də hazır olmalıyıq

## Hərbi ekspert: "Azərbaycan Ordusunda PUA-lara qarşı mübarizə üçün müvafiq arsenal mövcuddur, peşəkar kadrlarımızın sayı da artırılmalıdır"

**Davam edən Ukrayna müharibəsi, iyunun 1-də Rusiyanın strateji aerodromlarına hücum PUA-ların müasir ordunun əsas sütunlarından birinə çevrildiyini bir daha təsdiqlədi. Müasir ordular PUA-lar olmadan mümkün deyil. 2024-cü ildə Avropada müdafiə xərcləri 17 faiz artaraq 693 milyard dollara çatıb ki, bu da "soyuq müharibə"nin bitməsindən bəri rekord göstəricidir.**

Avropa Birliyi növbəti dörd il ərzində yeni müdafiə və hücum silahlarının hazırlanması üçün 800 milyard avroya qədər büdcə ayırıb. Avropa ölkələri müdafiə potensialında əsas prioritet olaraq PUA istehsalını da nəzərdə tutur. ABŞ süni intellektdən istifadə edərək yüksək texnologiyalı PUA-lar hazırlamağa davam edir, Trampın fantastik trilyonluq "Qızıl Günbəz" layihəsi həm də ölkəyə PUA hücumlarının qarşısını almağı hədəfləyir. İsrail də bu sahədə istehsal etdiyi ağıllı dronlarla məşhurdur. Türkiyə də dünya bazarını effektiv hücum və kəşfiyyat aparatları ilə fəal şəkildə təmin edir. Qərb Ukrayna müharibəsində ayılıb ki, sən demə, texnologiya sanksiyaları altında olan İran ucuz və ölümcül PUA istehsalında rəqiblərini xeyli geridə qoyub. Ukraynanı isə hazırda PUA-larla Böyük Britaniya və Almaniya təmin edir, özlərinin yerli istehsalı haqda dəqiq bilgi yoxdur. Bəzi hesablamalara görə, PUA-lar hərbi əməliyyatlar və ya genişmiqyaslı müharibə zamanı düşmən hədəflərinin demək olar ki, 80%-nin məhv edilməsini təmin edə bilər. Heç bir ordu birləşməsi PUA-lar kimi təkbaşına bu cür effektli ola bilməz.

Daha bir vacib məsələ PUA-lara xidmət və istifadə edə bilən kifayət qədər ixtisaslı mütəxəssislərin olmasına diqqət ayırmaqdır. Yeni PUA almaqla iş düzəlmir, onu hədəfə doğru yönləndirmək də artıq xüsusi kadrlar tələb edir. Azərbaycanın sərhədlərinin ümumi uzunluğu 3370,4 kilometrdir. Bunun 2657,4 kilometri quru, 713 kilometri isə dənizdir. Azərbaycana qonşu ölkədən hələ ki narkotik yüklü PUA uçur. Bunun qarşısını almaq sərhədçilərimiz üçün çətin görünmür. Amma biz də bomba yüklü PUA-larla mübarizəyə necəsə, amma mütləq hazır olmalıyıq. Çünki Ermənistanla sülh müqaviləmiz yox, ətrafımızda isə bədxahlarımız çox...

**Hərbi ekspert, polkovnik Rövşən Məhərrəmov "Yeni Müsavat"a bildirdi ki, ilk dəfə PUA-lardan məhz Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində istifadə eləyib və nəticə də məlumdur**: "PUA-ların və onları idarə edən mütəxəssislərin müharibədə qələbəmizdə mühüm rolu oldu. Hərbi hədəflərin zərərsizləşdirilməsində PUA-larımız mükəmməl idarə olundu. Bu faktın özü Azərbaycan Ordusunda PUA-ların və onların mütəxəssislərinin səviyyəsinin göstəricisi idi. Yaşadığımız əsr müharibə meydanında PUA-ların ön sıraya və ən həlledici əhəmiyyətə sahibləndiyi əsrdir. Azərbaycan dövləti, müdafiə sənayesi də bunu öncədən gördürü və hazırlıqlarını apardı. Azərbaycan Ordusunun silah arsenalında artıq xeyli vaxtdır PUA-lar yer alır. Eyni zamanda Azərbaycan Ordusunda PUA-lara qarşı mübarizə üçün də müvafiq arsenal mövcuddur.



Azərbaycan həm də PUA hücumlarından qorunmaq üçün də tədbirlərini görüb və görür. PUA hücumundan müdafiə sistemi get-gedə daha da mükəmməlləşdiriləcək. Şübhəsiz ki, sistemli fəaliyyət tələb edən bu işin əsas hissələrindən biri bacarıqlı kadrların hazırlanmasıdır. Kadrlarımız, dediyimiz kimi, var. Amma sayını artırmalı və peşəkarlıq səviyyələrini daha da yüksəltməliyik. Çünki dünyada silah istehsalçıları silahları, o cümlədən PUA-ları hər il təkmilləşdirirlər. Bu tendensiyanı nəzərə almalıyıq. Prosesdən geri qalmaq olmaz. Avropa ölkələrinin, hələ də sülh müqaviləsi imzalamaqdan yayınan qonşumuz Ermənistanın orduya ayrılan büdcəni artırması faktı da Azərbaycan Ordusunun bütün istiqamətlərdə daha da gücləndirilməsi və bu prosesin davamlı edilməsini şərtləndirir".

**Ekpsert qeyd etdi ki, hərbi sənayemizi müasir silahların istehsalı ilə zənginləşdirməliyik, PUA-lara qarşı yüksək səviyyədə mübarizə cihazlarının istehsalı məsələsinə, eyni zamanda insan resursu, peşəkar kadr məsələsinə də çox ciddi yanaşılmalıdır:** "Müasir silahları idarə edən kadrlarımız çox olmalıdır. Sərhədlərimizin qorunması istiqamətində ən ciddi uğurlara biz ordumuzun arsenalında PUA hücumundan müdafiə sistemini daha da mükəmməlləşdirməklə nail olmalıyıq. Eyni zamanda ordumuz dünyanın ən müasir PUA-larını əldə etməlidir. Dünya ilk dəfə Azərbaycanın 2020-ci ildə dron müharibəsi aparmasının effektivliyini gördü. Məhz bundan sonra dünya ölkələri öz ordularının silah arsenalında PUA-lara xüsusi yer ayırmağa başladı. Bu gün Ukrayna Rusiya kimi nəhəng ölkəyə məhz dronlarla ağır zərbələr vurur".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Zəngəzur üzərində diplomatik savaş güclənir

## "Müdafiə naziri Belousovun sözləri Rusiyanın İrəvana xəbərdarlığıdır"

**Ötən həftə Ermənistanın Sünik rayonunun (Zəngəzur) Gorus şəhərində Fransanın fəxri konsulluğunun açılışı olub. Erməni mediasının məlumatına görə, fəxri konsul vəzifəsinə Gorusdakı Frankofoniya mərkəzinin direktoru Karmen Apunts təyin edilib. Ermənistan xarici işlər nazirinin müavini Paruyr Hovannisyan deyib ki, sabit sülhün təminatı həm də iqtisadi qarşılıqlı əlaqə və regional əməkdaşlıqdır ki, bu da regionda qarşılıqlı etimad mühitinin formalaşmasına töhfə verəcək.**




"Sünik regional əməkdaşlığın strateji qalasına çevrilə bilər, burada infrastruktur, nəqliyyat və enerji sektorlarında birgə layihələr təkcə Ermənistanın deyil, bütün regionun, eləcə də daha geniş regionun maraqlarına xidmət edəcək. Bizim məqsədimiz sülh və təhlükəsiz regiondur. Burada münaqişələr əvəzinə əməkdaşlıq hökm sürür, sərhədlər - qapılar və təhdidlər əvəzinə biz qarşılıqlı hörmət əsasında münasibətləri necə inkişaf etdirmək barədə düşünürük", - nazir müavini qeyd edib.

Fransanın Ermənistandakı səfiri Olivye Dekotini isə bildirib ki, Gorus Ermənistanın geosiyasətinin mərkəzində yerləşən və ilk nöqtə kimi Qarabağdan gələn əhalini qəbul edən şəhərdir: "Bu, regionda sülhü bərqərar edən şəhərdir". Diplomat Gorusun həmişə yol ayrıcında olduğunu və fəaliyyətinin sülhün bərqərar olmasına yönəldiyini qeyd edib.

Beləliklə, Ermənistan Zəngəzur dəhlizinin keçdiyi ərazini Fransanın nəzarətinə vermiş sayılır. Bu, əlbəttə, ilk növbədə Rusiyaya zərbədir. Çünki dəhlizə nəzarət 2020-ci il 10 noyabr Üçtərəfli Birgə Bəyanata əsasən Rusiya sərhədçilərinə verilməli idi. Eyni zamanda Rusiya uzun müddət idi ki, Zəngəzurda diplomatik missiya yerləşdirməyə çalışırdı, amma rəsmi İrəvan buna "yox" deyir. Artıq konsulluğun açılması məsələsinə olmasa da, həmin gün Rusiyanın müdafiə naziri Andrey Belousovun "Ermənistanın Sünik bölgəsi ətrafında gərginlik davam edir" bəyanatı ilə çıxış etməsi bir məsaj sayıla bilər.

Məlumdur ki, Fransa bu sərhəd bölgəsində hansısa diplomatik missiya adı altında yerləşməyə çalışırdı. Fransanın Ermənistanın cənub bölgəsi olan Zəngəzurda konsulluq açması regionda yeni geosiyasi proseslərin başlandığını göstərir. Ekspertlərin fikrincə, bu addım Zəngəzur dəhlizinə gələcəkdə nəzarət etmək planının tərkib hissəsidir və Ermənistanın Rusiyanın bölgədəki təsirini zəifləmək məqsədi güdür.

**Siyasi icmalçı Asif Nərimanlı** mövzu ilə bağlı Ayna.az-a müsahibəsində xatırladıb ki, Qərbi Zəngəzurda davam edən konsulluq yarışında Fransa İrandan sonra nəticə əldə edən ikinci ölkədir: "Gorusda açılan Fransa konsulluğunun iki mümkün missiyası var. Birincisi, konsulluq Fransanın kəşfiyyat mərkəzi kimi fəaliyyət göstərə bilər. O da istisna deyil ki, konsulluq bu missiyanı Avropa İttifaqının bölgədəki müşahidə missiyası ilə koordinasiyalı şəkildə həyata keçirəcək. İkincisi, həm də ən əsası konsulluğun açılması Fransanın Zəngəzur üzərindən bölgədəki mövqelərini, xüsusilə regional kommunikasiyalarda iştirak imkanlarını gücləndirmək məqsədi daşıyır. Ermənistan və Fransa rəsmilərinin bəyanatlarında da buna işarələr var. Qərbi Zəngəzur Cənubi Qafqazda kommunikasiyanın açılmasında strateji bölgədir. Bunun bütövlükdə Avrasiyanın nəqliyyat şəbəkəsinin bir hissəsi olduğu amili nəzərə alınmalıdır. Bu kontekstdə konsulluğun açılışında iştirak edən Fransanın İrəvandakı səfiri Olivye Dekotinin "Gorus Ermənistanın geosiyasətinin mərkəzindədir və həmişə mühüm yol ayırıcı rolunu oynayıb, bundan sonra da belə olacaq" sözləri diqqət çəkir".

**Ekspertə görə, bu, Rusiyaya zərbədir:** "Rusiyadan verilən bəyanatlar da bu kontekstdə nəzərdən qaçmamalıdır. Birincisi, regiondan kənar ölkələrin bölgəyə Ermənistan üzərindən, məhz Zəngəzurdan müdaxiləsi ilə bağlıdır. Avropa İttifaqının müşahidə missiyasının fəaliyyət göstərdiyi və faktiki olaraq, Rusiya sərhədçilərinin yerini tutduğu Zəngəzurda Fransa konsulluq açır. Və bu, Ermənistanın bölgədə konsulluq açmaq istəyən Rusiyaya imkan verməməsi fonunda baş verdi. Bölgədə ilk konsulluğu İranın açması rəsmi İrəvan üçün regional müttəfiqin Tehran, ikinci konsulluğu Fransanın açması isə regiondan kənar müttəfiqinin Paris olduğu deməkdir".

**Ekspert hesab edir ki, müdafiə naziri Belousovun sözləri Ermənistanda mövqelərini bərpa etmək istiqamətində aktivləşən Rusiyanın xəbərdarlığı kimi qəbul edilə bilər:** "Belousov bildirir ki, "Ermənistan-Azərbaycan münasibətlərinin qeyri-sabit vəziyyətindən narahatdırlar, Sünik rayonu ətrafında gərginlik qalmaqdadır. Moskva İrəvanla Bakı arasında sülh müqaviləsinin imzalanmasında maraqlıdır və hər cür kömək etməyə hazırdır"".

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 99 (8709) 11 iyun 2025

# Talıbovun "hörümçək toru"nun sonu - Milli Məclisin qərarı...

## Naxçıvan Muxtar Respublikasının Konstitusiyası dəyişiklik üçün Bakıya göndərilir; nələr dəyişir və niyə referendum çağırılmadı?

**Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi barədə qərar qəbul olunsa da, hələ təsdiq olunmaq üçün Milli Məclisə göndərilməyib. Buna səbəb kimi Ali Məclisin sədrinin vəzifəsini yerinə yetirən birinci müavinin qanunu hələ imzalamamasıdır. Naxçıvan Ali Məclisində hansı islahatların və dəyişikliklərin olacağı ilə bağlı detallar da hələ ki məxfi saxlanılır. Əsas dəyişikliyin idarəetmə ilə bağlı olacağı şübhə doğurmur.**

Çünki 2022-ci ilin sonlarında Naxçıvan Ali Məclisinin sədri Vasif Talıbov istefa verdikdən sonra muxtar respublikada Prezidentin sərəncamı ilə səlahiyyətli nümayəndə fəaliyyətə başlayıb. Halbuki Naxçıvan MR Konstitusiyasında faktiki olaraq belə bir post nəzərdə tutulmayıb. Azərbaycan Konstitusiyasına görə isə Prezidentin regionlara öz nümayəndələrini təyin etmək, oralarda bəzi struktur dəyişiklikləri aparmaq səlahiyyətləri var. İlk növbədə Naxçıvandakı real vəziyyətlə konstitusiya arasındakı struktur dəyişikliklərindən doğan fərq aradan qaldırılmalıdır. Bəzən hansı qərarı vermək səlahiyyəti onun, hansının Ali Məclis sədrinin, hansının isə baş nazirin ixtiyarında olduğu, yəni hakimiyyət bölgüsü sahəsində lazımsız mübahisələri aradan qaldırmaq lazımdır. Ehtimal edilir ki, Ali Məclis sədrinin səlahiyyətləri məhdudlaşdırılacaq.

Ekspertlərə görə, uzun illərdən bəri Azərbaycanda aparılan bir çox dəyişikliklər Naxçıvandan yan keçmiş, bəzi ləğv olunan nazirliklərin paralel strukturları toxunulmadan saxlanılmışdı. Yeni səlahiyyətli nümayəndə təyin olunandan sonra həmin nazirliklərin bir çoxu ləğv olunmuş, bəziləri komitəyə, Azərbaycandakı strukturlara bağlı baş idarəyə çevrilmişdi. Bu dəyişikliklər də Naxçıvan MR Konstitusiyasında öz əksini tapmalıdır.

Daha bir mübahisəli məsələ Naxçıvanın baş naziri ilə bağlı məsələyə aydınlıq gətirilməsi ola bilər. Ümumiyyətlə, illərlə bu strukturun - Nazirlər Kabinetinin niyə fəaliyyət göstərdiyi haqda haqlı suallar da var. Çünki Ali Məclisin sədri istədiyi qanunu və ya qərarı çıxarıb, özü də onu icra etmək səlahiyyətlərinə malik olub. Ona görə də mümkün variant kimi baş nazir postunun tamamilə ləğv olunması gözlənilir.

O halda, niyə referendum yox, Milli Məclis bu dəyişikliklərə qərar verir? Əvvəlcə Naxçıvan əhalisinin rəyi olmalı deyildimi?

**Hüquqşünas Qulamhüseyn Əlibəyli "Yeni Müsavat"a bildirib ki, Azərbaycan Konstitusiyasının 134-cü maddəsinə əsasən Naxçıvan MR Konstitusiyası Ali Məclis tərəfindən qəbul olunur, Milli Məclis isə onu təsdiq edir:** "Bu təsdiq ayrıca konstitusiya qanunu kimi qəbul olunur. Hazırda Naxçıvan Muxtar Respublikasının Konstitusiyası Azərbaycan Konstitusiyasına əlavə hesab edilir, amma konstitusiyanın mətninə aid deyil. Əgər bu dəyişiklik Azərbaycan Konstitusiyasına mətn kimi daxil edilsəydi, o zaman referendum çağırıla bilərdi". **Hüquqşünas hesab edir ki, indiki dəyişikliklər Azərbaycan Konstitusiyasına daxil deyil, əlavə dir:** "Odur ki, referenduma ehtiyac yoxdur. Ona görə də konstitusiya qanununa dəyişiklik Milli Məclis tərəfindən təsdiq edilməlidir, sonra Prezident qərarı imzalamalıdır".




Xatırladaq ki, Naxçıvan Ali Məclisinin yeddinci çağırış yaz sessiyasının son iclasında "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu (ikinci səsvermə) müzakirə olunub. Ali Məclisin yaz sessiyasının 20 fevral tarixdə keçirilən iclasında "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Qanunun geniş müzakirə edilərək birinci səsverməyə çıxarıldığını və qəbul edildiyini bildirən Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov qeyd edib ki, Naxçıvan Konstitusiyasına əsasən, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişikliklər 3 aydan sonra yenidən səsverməyə qoyulmalıdır. Birinci səsvermə fevral ayının 20-də keçirilmişdi. İkinci səsvermə birinci səsvermədən 3 ay sonra keçirilib.



Qeyd edək ki, muxtar respublikada həyata keçirilən struktur islahatları, səlahiyyətli nümayəndəlik institutunun yaradılması, yeni idarəçilik qaydalarının tətbiqi, dövlət orqanlarının yenidən formalaşdırılması və qanunvericilik sisteminin təkmilləşdirilməsi kimi tədbirlər Naxçıvan Muxtar Respublikası Konstitusiyasında da dəyişikliklərin edilməsini zəruri edib. Hazırlanmış qanun layihəsi qeyd olunanları əhatə etməklə muxtar respublikada yeni idarəetmə modelinin tətbiqini nəzərdə tutur.

Onu da yada salaq ki, Vasif Talıbovun işdən çıxarılmasından sonra Prezident Naxçıvan Ali Məclisi sədrinin bir neçə səlahiyyətini ləğv edib. Hazırda Naxçıvanda "ikihakimiyyətlilik" var. Formal olaraq hakimiyyət muxtar respublikanın idarəetmə orqanlarındadır. Amma orada Bakıdan təyin olunan səlahiyyətli nümayəndə də var. Bu gün səlahiyyət bölgüsü haqda hər hansı bir izahat da yoxdur. İki il əvvəl dekabrın 22-də Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi haqqında fərman imzalayıb. Fuad Nəcəfli Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi təyin edilib. Dəyişiklik əsasında Ali Məclisin sədrinin "ali vəzifəli şəxs" statusu ləğv edilə bilər. Ali Məclis sədrinin həm qanunverici orqana rəhbərlik etməsi, həm də ali vəzifəli şəxs olması birmənalı qarşılanmır. Dəyişikliklərdən sonra hüquqi problem aradan qaldırılacaq.

Naxçıvan Ali Məclisinin sonuncu sədri Vasif Talıbov olub. O, 1995-2022-ci illərdə bu vəzifəni tutub. Naxçıvan Konstitusiyası da onun dövründə qəbul edilib. Talıbovun istefasından sonra onun yerinə heç kim seçilməyib. Ötən il sentyabrın 1-də keçirilən parlament seçkilərində Naxçıvan Ali Məclisi, demək olar ki, tam yenilənib. Ancaq seçkidən sonra da heç kim sədr postuna gətirilməyib. Həmçinin Naxçıvanda yerli icra hakimiyyətlərinin başçıları öz fəaliyyətləri haqqında ildə bir dəfədən az olmayaraq, Ali Məclisin sədrinə hesabat vermək tələbi də ləğv edilib. Bu iş Prezidentin səlahiyyətli nümayəndəliyinə həvalə olunub. Yəni icra başçıları Ali Məclis sədri qarşısında hesabatlı deyillər. Bu da sözügedən vəzifənin artıq simvolikləşməsindən xəbər verir. Həmçinin icra başçısının müavinini Ali Məclisin sədri ilə razılaşdırır, vəzifəyə təyin və ya azad edirdi. Artıq bu səlahiyyəti də ləğv edilib.

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**



# Heydər Əliyevin Naxçıvandan dönüşü - iyun, 1993-cü il...

## Pilot: "Heydər Əliyev olan təyyarəni nə Ermənistan, nə də Gəncə şəhəri üzərindən Bakıya gətirmək olardı, ona görə də..."

**9 iyun 1993-cü il... Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyev Azərbaycan xalqının təkidli tələbi ilə Bakıya uçur. Onu gətirən təyyarə iyunun 9-da günorta saatlarında Binə Hava Limanına enir. Bu, İK-65703 nömrəli TU-13413-3 markalı təyyarə idi. Və Binə hava limanında Heydər Əliyevi geniş xalq kütləsi qarşılayır...**

9 iyun 1993-cü il tarixində Naxçıvandan Bakıya uçan Heydər Əliyevi TU-13413-3 markalı təyyarədə müşayiət edən bir neçə şəxs olmuşdu ki, onlardan da biri ilk şəxsi mühafizəçisi Əmir Hüseynov idi (fotoda Heydər Əliyevin arxasında dayanan şəxs. Əmir Hüseynov 1991-ci ildə Heydər Əliyev Moskvadan Naxçıvana qayıtdığı gündən onun mühafizəsinə qoşulmuş və bu missiyasını 1994-cü ilə qədər davam etdirmişdi - red.)

**Naxçıvan Ali Məclisinin ovaxtkı sədri Heydər Əliyevi Bakıya gətirən TU-13413-3 təyyarəsini idarə edən kapitan İlham Əmirov olmuşdu. Onun xatirələrindən:** "Həmin dövrdə vəziyyət çox gərgin idi. Bir tərəfdən Ermənistanın Azərbaycana ərazi iddiaları və Qarabağda davam edən müharibə, digər tərəfdən isə daxildəki gərginlik xaos vəziyyəti yaratmışdı. Həm ermənilər, həm də AXC bilirdi ki, Heydər Əliyevin hakimiyyətə qayıdışı vəziyyətin sabitləşməsinə səbəb olacaq, bu da onların məqsədlərinə nail olmalarına əngəl yaradacaq. Ömrünü Azərbaycanın inkişafına həsr etmiş Heydər Əliyev kimi nəhəng siyasi xadim dövlətin bütün düşmənlərini, xalqın mənafeyinə zidd siyasət aparan siyasi qüvvələri kənarlaşdıracaq. Bu baxımdan sərnişini Heydər Əliyev olan təyyarəni nə Ermənistan, nə də Gəncə şəhəri üzərindən Bakıya gətirmək olardı. Ona görə də alternativ marşrutdan istifadə etmək lazım idi. Buna görə də əvvəlcədən hazırlanan plan üzrə təyyarəni İran üzərindən idarə edib Bakıya gəlməyə qərara aldım. Beynəlxalq uçuş qanunlarına əsasən, digər dövlətin hava məkanına daxil olmaq üçün mütləq icazə almaq lazımdır. Buna görə də qabaqcadan hazırlanmış plana görə İran tərəfdən icazə almışdıq və bu icazəyə əsasən, təyyarəni bu ölkənin hava məkanına daxil olaraq Bakıya istiqamət götürdü...

Təyyarənin istiqamətinin dəyişilməsi dispetçer tərəfindən narazılıqla qarşılandı və mənə əsəbi tərzdə geri qayıtmaq əmri verildi. Lakin mən bu əmrə məhəl qoymadım və Ulu öndəri Bakıya çatdırdım".(Modern.az)

**Heydər Əliyevin həmin günlə bağlı öz xatirələrindən:** "...Mən hakimiyyətə özüm gəlməmişəm, məni dəvət etmişdilər. Məni təkidlə dilə tutmuşdular. Gəncə hadisələrindən sonra bir neçə gün ərzində Azərbaycan əhalisinin müxtəlif qruplarının, ziyalıların nümayəndələri, nüfuzlu ağsaqqallar mənə müraciət etmişdilər. Azərbaycan Prezidenti Əbülfəz Elçibəy də mənə təkidlə müraciət etmişdi. O, üç dəfə ayın 7-də, 8-də, 9-da Naxçıvana xüsusi təyyarə göndərmişdi və telefon söhbətlərində israrla xahiş edirdi ki, Bakıya gəlim. Mən 7-də də, 8-də də imtina etdim. Nəhayət, vəziyyətin getdikcə kəskinləşdiyini duyaraq iyunun 9-da bu dəvəti qəbul etdim və Bakıya gəldim".

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 99 (8799) 11 iyun 2025



# 45 üzüklü müəllim(ə)

Zamin HACI
zaminhaci@gmail.com

"Qızıl üzük laxladı, Verdim müəllim saxladı"
(xalq mahnısı yeni aranjimanda)

**Danimarkada "Novo Nordisk" adlı dərman firması var. Əsası 1923-cü ildə qoyulub, şəkərli xəstələr üçün insulin istehsalı ilə başlayıblar, sonra pensilinə və başqa dərmanlara keçiblər, son illər isə "Ozempik" adlı arıqlama dərmanıyla bütün dünyada məşhur olublar. 2023-cü ildə firmanın bazar dəyəri 421 milyard dollara çatmaqla Avropanın ən baha şirkətinə çevrilmişdi. Loru dildə desəm, Avropada ən dəyərli şirkət nə neft-qaz satanlar, nə maşın-təyyarə qayıran nəhənglər idi, hazırda da belə olmalıdır. (Dəqiqləşdirdim, son aylar 3-4 şirkət onu ötməyi bacarıb və biri ərzaq şirkəti Nestle-dir). 2023-cü ildə "Novo Nordisk" təkcə ABŞ-da 10 milyard dollar dəyərində "Ozempik" satmışdı.**

Bu rəqəmlərin bizə dəxli nədir soruşsanız, mövzu həmin arıqlama dərmanı deyil. Qısa müalicə kursunun dəyəri haradasa 1000 dollar ətrafında olan həmin dərman əslində orta statistik azərbaycanlı üçün əlçatmazdır və apteklərimizdə də saxtasını satırmışlar. Məni keçən ay şirkətin başçısı Lars Yorqensen-in istefa verməyi düşündürür. Sən demə, bazarda "Ozempik"ə müəyyən rəqiblər yaranıb, nəticədə satışlarda 5-6 faiz azalma var. O cümlədən "Novo Nordisk"in fantastik uğuru Danimarka milli pulu kronun möhkəmlənməsinə səbəb olub, hökumət isə bunu istəmir, çünki milli valyutanın qəfil möhkəmlənməsi yerli iqtisadiyyatın xeyrinə deyildir və sairə.

Təsəvvür edirsinizmi? Avropanın ən dəyərli şirkətindən istefa verirsən, nədir-nədir aksiyaların yüngülvari ucuzlaşma olubmuş. Heç ondan qabaq aksiyaların havada uçmağını da vecinə almırsan. Bunu bizim ölkədə kim eləyərdi? Heç kim. Azca bacarıq, cubbulu qələbə əldə edən hər kəs kreslosuna superkleylə yapışır. Bəlkə istefa vermək istəsə, millət özü tutub yerinə qaytarar, deyərlər sən canın, bizi yetim qoyma.

Tovuz tərəfdə bir müəllim(ə)nin barmağına üzük taxmışdılar. Yanlış anlamayın, müəllim(ə) nə nişanlanıb, nə ərə gedib. Sadəcə, hansısa sinifə dərs dediyi üçün valideynlər üzük alıb dərs ilinin sonunda buna rüşvət veriblər. İndi mən bunu "rüşvət" adlandırdım, onlar "hədiyyə" deyir. Lakin bu çirkin prosesdən inciyən varmı? Deyəsən, müəllim(ə)yə töhmət verən Təhsil Nazirliyindən başqa kiminsə vecinə olmadı. "AzadlıqRadiosu" vətəndaşlar arasında sorğu keçirmişdi, az qala hamı üzük taxılmasını alqışlamış, əksinə, nazirliyi qınamışdı.

Bu adamlara necə izah etmək olar ki, müəllimin peşə kodeksi, peşə əxlaqı valideynlərdən bahalı hədiyyələr, qızıl-zinət əşyaları almağı qətiyyətlə pisləyir? "Şərqdir, müsəlmanıq, müəllimi xalq yaşadır" və sairə ilə ağzını yumacaqlar, heç səsini çıxara bilməyəcəksən. Cavidin ünlü şeiri də bizim məktəblərdə artıq arxaizmin dibi kimi səslənir: "Yoxmu sənin incilərin, altun bilərziklərin?.. Müəlliməm hər gün söylər, onların yox qiyməti, Bir qızın ancaq bilgidir, təmizlikdir zinəti".

Zəhmət çəkmək, öz əməyinin real dəyərini, qiymətini tələb etmək yerinə hamı hədiyyə istəyir. Elə bil bazara çıxarıblar özlərini. Əməyin dəyərini qanuni, sivil üsullarla ödəməli olanlar da hədiyyə, ənam, xələt şəklində verib gözükölgəli, yaltaq siniflər, zümrələr yetişdirməyə meyllidir. Sən müəllimin normal maaşını ver, üzüyü özü alsın. Çətin işdirmi? Niyə Danimarka belə sistem qurub, biz qura bilmirik?

Maraq üçün tapdım, Danimarkada müəllimin orta aylıq maaşı 35 min 183 kron imiş. Bizim pulla nə qədər eləyir? Necə deyərlər, heç soruşmayın: 9 min 155 manat.

Ta alverə başlamışıq, dedim hörmətli zəhmətkeşlərimiz üçün bazarlığı axıra qədər eləyək. "Memar Əcəmi"dəki məşhur univermağın qızılsatanlarında 1,7 qramlıq, əsl müəllim(ə) barmağına layiq üzüklər var, bir dənəsi 200 manat. Danimarkanın Orhus (Tovuza qafiyə üçün) bölgəsindən olan müəllim istəsə öz aylıq maaşıyla buradan 45 üzük alar, hələ qalan 155 manatla da metronun üstündəki kafelərdə kəlləpaça yeyə bilər.

**Ötən həftəsonunun diqqətçəkən hadisələri sırasında Rusiyanın Avropa ölkələrindəki səfirlərinin Bakıdakı iki günlük görüşü oldu. "Yeni Müsavat" xəbər verir ki, Rusiya xarici işlər nazirinin müavini Aleksandr Qruşko və Rusiyanın Şimali və Qərbi Avropadakı diplomatik nümayəndəliklərinin rəhbərləri Bakıda "mövcud təhdidlər və çağırışlar nəzərə alınmaqla, regiondakı vəziyyəti təhlil edərək Moskvanın Avropa dövlətləri ilə münasibətlərini" müzakirə ediblər.**



# Rusiyanın səfirləri Bakıda toplamasının pərdəarxası

## Lavrovun müavini ilə Avropadakı rus diplomatların görüşü niyə məhz Azərbaycan paytaxtında baş tutdu - ilginc rəylər

"Avropa regionundakı vəziyyət müasir çağırışlar və təhdidlər kontekstində, eləcə də Rusiyaya qarşı başlayan hibrid müharibə kontekstində Avropa ölkələri ilə ikitərəfli münasibətlərin vəziyyəti ətraflı təhlil edilib. Müzakirə olunan məsələlərin geniş spektri üzrə gələcək üçün tövsiyələr formalaşdırılıb", - Rusiya Xarici İşlər Nazirliyinin saytında yerləşdirilən bəyanatda deyilirdi.

Bakıda keçirilən görüşdə Qruşko və Rusiya diplomatik nümayəndəliklərinin rəhbərləri həmçinin səfirliklərin maddi-texniki və kadr təminatı baxımından işini də müzakirə ediblər. Qruşko və Rusiya səfirlərini Azərbaycan Xarici İşlər Nazirliyinin rəhbəri Ceyhun Bayramov qəbul edib. Görüşdə iki ölkə arasında siyasi və iqtisadi əlaqələri, o cümlədən regional təhlükəsizlik məsələlərini müzakirə olunub. "Görüş zamanı Azərbaycan-Rusiya münasibətlərinin siyasi, iqtisadi, ticarət, humanitar və digər aspektləri, qarşılıqlı maraq doğuran regional və beynəlxalq təhlükəsizlik məsələləri, habelə münaqişədən sonrakı dövrdə regionda mövcud vəziyyət müzakirə edilib", - məlumatda deyilir.

C.Bayramov ikitərəfli əməkdaşlığın inkişafı üçün qarşılıqlı səfərlərin və təmasların intensivləşdirilməsinin vacibliyini vurğulayıb. Rusiyaya Azərbaycanın xarici siyasət gündəliyinə aid bir sıra məsələlər barədə məlumat verilib. Rusiya diplomatları həmçinin Bakı və Azərbaycan yepiskopu Aleksi ilə görüşüblər.

Lakin görüş üçün yer seçimi əlbəttə ki, diqqət çəkir. Nəzərə alsaq ki, son aylar Bakı və Moskva münasibətlərində sərinlik hökm sürür. C.Bayramovla görüşdə verilən müsbət mesajlar münasibətlərdə normallaşmanın hər iki tərəfin marağında olduğu göstərir. Bəs yerli ekspertlər görüşün Bakıda keçirilməsində mesajı necə dəyərləndirirlər? Səfirlərlə müzakirələrdə anti-Avropa tezisləri Bakının Aİ ilə münasibətlərini gərginləşdirə bilərmi? Bakıdakı toplantının Federasiya Şurasının sədri Matviyenkonun İrəvana səfərlə eyni vaxta olması təsadüf etməsi də maraqlı detaldır...

**"Yeni Müsavat"a bu görüşü şərh edən siyasi analitik Oqtay Qasımovun sözlərinə görə, rus səfirlərin Bakıya toplaşması olduqca diqqətçəkici hadisədir:** "Bakı ilə Moskva arasında münasibətlərdə təzadlı məqamlar olsa da, ölkələr öz diplomatlarını daha yaxın coğrafiyaya çağıraraq tədbirlər təşkil edirlər. Bu məsələdə Azərbaycanın Avropaya yaxın olduğunu nəzərə ala bilərik. Eyni zamanda Azərbaycan Rusiya üçün etibarlı məkandır, bizə etimad göstərilir. Bura həm də təhlükəsizliyin təmin olunduğu məkandır. Ona görə Moskvanın seçimi Bakı olub".

**O.Qasımovun fikrincə, görüşdə Qərbdən gələn təhdidlərin müzakirə edilməsi postsovet məkanına mesaj xarakteri də daşıya bilər:** "Keçmiş bir postsovet ölkəsində Qərbin təhdidlərinin müzakirə edilməsi həmin dövlətlərə ismarış verilməsi anlamına gəlir. Yəni Moskva demək istəyir ki, Rusiya ilə Qərb ciddi konflikt içindədir və "qoca qitə"yə yaxınlaşmaq sizə ciddi problemlər yarada bilər. Bu mesajın xüsusən də Ermənistana verildiyini güman edirəm".

**Professor Qabil Hüseynli isə hesab edir ki, Bakıda görüşün keçirilməsi Rusiyanın xahişi əsasında ola bilər:** "Bu tədbir Moskvada da baş tuta bilərdi. Görünür ki, Kreml diplomatları Cənubi Qafqaza toplamaq fikrinə düşüb. Gürcüstanda mümkün deyildi, Ermənistanla əlaqələr ziddiyyətlidir, Azərbaycanla soyuqluğa baxmayaraq yenə də Bakı münasib yer kimi seçilib. Onların Avropa ölkələrinin birində yığışması da gözlənilən deyildi. Rusiya üçün ya Minsk, ya Bakı etibarlı məkan sayıla bilərdi. Amma niyə məhz Moskvanın özündə toplantı keçirilməməsi kifayət qədər qəribədir. Məncə, Rusiya həm Azərbaycanla əlaqələri gündəmə daşıyıb, yəni təkcə Lavrovun müavini ilə diplomatların görüşü məsələsi deyil, Bayramovla müzakirələr də əhəmiyyətli detaldır, həm də Qərbə göstərilir ki, Cənubi Qafqazda təsirlərimiz qalmaqdadır".

**Q.Hüseynlinin sözlərinə görə, Azərbaycan Rusiya ilə əlaqələrdə həmişə diqqətli olub, Moskvanı narazı salan addımlar atmayıb:** "Amma biz eynisini görə bilmirik. Bakıda keçirilən görüşlə paralel şəkildə Rusiya liderinin köməkçisinin verdiyi müsahibə qətiyyən uyğun gəlmir. Rəsmi Moskvanın Bakı ilə münasibətlərə yanaşması ikitirəlikdən ibarətdir. Zənnimcə, liderlər səviyyəsində danışıqlara ehtiyac var. Çünki aydınlaşdırılmalı məsələlər çoxdur. Xüsusən də təyyarə hadisəsindən sonra yaranmış qeyri-müəyyənliyə son qoyulmalıdır. Prezidentlər müzakirə aparmalıdırlar ki, Azərbaycan-Rusiya əlaqələrinin yeni mərhələsinə keçid etmək mümkün olsun. Bu şəkildə davam etməklə narahatlıqlar artacaq".

**Siyasi təhlilçi Əli Mustafaya görə, regional təhlükəsizliyin qavranması Azərbaycan və Rusiya üçün fərqlidir:** "Azərbaycan bu anlayışa daha çox milli təhlükəsizliyin təminatı prizmasından baxırsa, Rusiya üçün bu, bölgənin öz nüfuz dairəsində qalması anlamını daşıyır. Biz bölgədə sərbəst və müstəqil olmaq, öz daxili siyasətimizi azad şəkildə müəyyənləşdirmək istəyirik. Rusiya isə Cənubi Qafqazı hələ də öz geopolitik maraqları çərçivəsində görmək istəyir. Burada bizim suverenliyimizlə Rusiyanın təhlükəsizlik maraqları arasında ciddi fərqlər var. Bizim üçün əsas olan müstəqillikdirsə, Rusiya üçün bu, bölgədə öz təsir imkanlarını qorumaq və digər aktorların daxil olmasına qarşı çıxmaqdır".

**Ə.Mustafa bildirib ki, rus diplomatlarının Azərbaycanın xarici siyasəti ilə bağlı suallar verməsi təsadüfi deyil:** "Bu suallar vasitəsilə Azərbaycanın Qərblə münasibətləri, regionda yeni güc balansının formalaşması və bu prosesin Rusiyanın maraqlarına təsiri araşdırılır. Rusiya anlayır ki, bölgədəki nüfuzu getdikcə zəifləyir və bu onun üçün narahatedici məqamdır. Mövcud durumda Azərbaycan daha çox balanslaşdırılmış siyasət yürütməyə çalışır. Rusiya da, digər beynəlxalq güclər də Azərbaycanın bu tarazlıq siyasətini diqqətlə izləyir. Çünki Azərbaycanın regiondakı rolu artır, maraqları daha konkret və prinsipial şəkildə ifadə olunur. Rusiya isə həm hərbi-siyasi alətlərlə, həm də diplomatik yollarla bölgədə qalmağa çalışır".

❑ Emil SALAMOĞLU,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 99 (8709) 11 iyun 2025

# Kreml yenə "Qarabağ məsələsi"nə qayıdır - Bakıdan sərt reaksiyalar

## Putinin köməkçisi "qaş düzəldən yerdə vurub göz çıxardı" - Donbası Qarabağla müqayisə etməklə yeni gərginlik yaratdı; Moskva isə onun səhvini düzəltmək istədi - Rusiyanın yeni planı...

**Rusiya Prezidentinin köməkçisi Vladimir Medinski Ukrayna müharibəsini Qarabağda mövcud olmuş vəziyyətlə müqayisə edib. O, Qarabağı "mübahisəli ərazi" adlandırıb. "Əgər Ukrayna münaqişəsi real sülh olmadan dayandırılarsa, bu, nüvə müharibəsinə gətirib çıxara bilər. Çünki Kiyev və NATO Rusiyanın yeni ərazilərini geri almağa çalışacaq", - Medinski qeyd edib.**

"Yeni Müsavat" bildirir ki, rəsmi Bakı Rusiya liderinin nümayəndəsinin çıxışına reaksiya verib. **Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə** bəyan edib ki, Rusiya Federasiyası Prezidentinin köməkçisi Vladimir Medinskinin 9 iyun tarixində "Russia Today" kanalına müsahibəsi zamanı keçmiş Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı faktların təhrif olunduğu, Qarabağ bölgəsini mübahisəli ərazi kimi təqdim edən açıqlaması təəssüf və təəccüb doğurur.

XİN rəsmisinin sözlərinə görə, təəccüblü hal odur ki, Rusiya Prezidentinin köməkçisi, habelə Rusiyanın Tarix Təhsili üzrə Qurumlararası Komissiyasının sədri olan Medinski Qarabağın heç zaman mübahisəli ərazi olmadığını bilmir. O bildirib ki, Qarabağ əzəli Azərbaycan torpağıdır: "Rusiya özü Qarabağı Azərbaycanın ərazisi kimi tanımışdır və tanıyır". A.Hacızadə daha sonra sözlərinə belə davam edib: "Eyni zamanda sual doğuran məqam ondan ibarətdir ki, Minsk Qrupunun həmsədri olmuş ölkənin prezidentinin köməkçisi dövlətinin bu məsələ ilə bağlı mövqeyini ya dərk etmir, ya da dərk etmək istəmir".

XİN sözçüsü təəssüf edir ki, Rusiya Prezidentinin köməkçisi Rusiya-Ukrayna müharibəsini Qarabağda mövcud olmuş vəziyyətlə müqayisə edir: "Azərbaycan heç zaman heç bir ölkənin ərazi bütövlüyünü pozmadığına və heç bir ölkəyə qarşı aqressiv müharibə aparmadığına görə belə müqayisə yersizdir. Azərbaycan 2020-ci və 2023-cü illərdə öz suveren və beynəlxalq birlik tərəfindən tanınmış ərazilərində Vətən müharibəsi və antiterror tədbirləri həyata keçirib. 44 günlük Vətən müharibəsi və 1 gündən az olaraq davam etmiş 2023-cü il antiterror tədbirləri Azərbaycanın tam qələbəsi və Ermənistanın məğlubiyyəti ilə nəticələnib və beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq Ermənistanın işğalına son qoyulub". Sonra diplomat Medinskiyə səlahiyyətinə aid olmayan məsələlərə dair yanlış iddialar səsləndirməklə dövlətlərarası münasibətlərə xələl gətirməməyi tövsiyə edib.

Bu bəyanatın ardınca A.Hacızadənin rusiyalı həmkarından açıqlama gəlib. Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib ki, ölkəsi rəsmi olaraq Qarabağı Azərbaycanın ərazisi kimi tanıyır. O, Medinskinin sözlərini kontekstdən çıxarmamağa və onlara tamamilə fərqli bir məna verməməyə çağırıb. Qeyd edib ki, Medinski Qarabağla bağlı şərhdə vəziyyətin tarixi aspekti və sosial-mədəni xüsusiyyətlərdən danışıb.

Nəzərə alaq ki, Medinski təkcə Putinin köməkçisi yox, həm də Kremlin rəsmi ideoloqlarından biridir. Medinskinin bu açıqlaması bir daha hələ də Kremlin "Qarabağ sancısı"nın bitmədiyini göstərdi. Göstərdi ki, Moskvanın bir gözü yenə Ermənistanda və Azərbaycan torpaqlarında, fikri isə bu ərazilərdə yenidən aranı qatmaqda, Ermənistanı işğalçılığa həvəsləndirməkdədir. Bundan bir müddət əvvəl İrəvana səfər edən Rusiya xarici işlər naziri Sergey Lavrov Ermənistanın vaxtilə Azərbaycanın Qarabağla yanaşı, ətraf yeddi rayonunu işğal etmək üçün Rusiyadan aldığı silah və texnikadan istifadə etdiyini açıq şəkildə, utanıb çəkinmədən bəyan etmişdi.

İstər Lavrovun, istərsə də Medinskinin bu açıqlamaları bir daha Ukraynada bataqlığa düşmüş Rusiyanın "başı açılan kimi" bizim regionda yenidən aranı qatmağa çalışacağının siqnalları sayıla bilər.

**Siyasi ekspert Elxan Şahinoğlu** sosial media hesabında yazıb ki, Qarabağı hələ də "mübahisəli ərazi" kimi təqdim edən ölkə Azərbaycanın strateji tərəfdaşı olmadığı kimi, bu ölkəyə heç bir halda Xankəndidə konsulluq xidməti açmağa "yaşıl işıq" yandırıla da bilməz: "Zaxarova Medinskinin sözlərini kontekstdən çıxarmamağa və onlara "tamamilə fərqli bir məna verməməyə" çağırıb. Amma biz kontekstdən heç nə çıxarmırıq və faktları təhrif etmirik. Prezidentin köməkçisi "Russia Today" kanalına müsahibəsində bunu deyib: "Əgər Rusiya-Ukrayna cəbhə xətti boyu münaqişə dayandırılarsa və əsl sülh əldə olunmazsa, sadəcə olaraq, hansısa atəşkəs bağlanılarsa, bu, - bilirsiniz, Ermənistanla Azərbaycan arasında mübahisəli bölgə, Qarabağ kimi - bu zaman bu bölgə nəhəng Qarabağa çevriləcək". Yəni Medinski demək istəyib ki, Rusiya ilə Ukrayna arasında atəşkəs olarsa, Kreml istəyinə nail ola bilməyəcək və Donbas Qarabağ kimi "mübahisəli əraziyə" çevriləcək. Bu baş verməsin deyə Kreml Ukraynada məsələni "köklü" həll etmək istəyir".

**Analitik bildirib ki, birincisi, Azərbaycan Qarabağı işğaldan azad edib, Rusiya isə Donbası işğal edib:** "İkisi arasında ən böyük fərq budur. İkincisi, keçmiş işğalçı dövlət olan Ermənistanın hakimiyyəti müharibədən sonra Qarabağı Azərbaycan ərazisi kimi tanıyıb, Ukrayna isə işğal altındakı ərazilərin Rusiyaya aid olduğunu qəbul etməyib. Bir məqamı da nəzərə almalıyıq ki, Medinskinin Qarabağla Donbas arasında apardığı uğursuz müqayisə yalnız onun beyninin məhsulu deyil, köməkçisi olduğu şəxs də onun kimi düşünür, sadəcə, Azərbaycan Ordusunun qələbəsi Kreml sahibini reallığı qəbul etməyə məcbur edib. Ancaq belə bir adamın bir gün reallığı dəyişmək istəmədiyindən əmin ola bilmərik".



**Modern.az-a danışan sabiq xarici işlər naziri Tofiq Zülfüqarov deyib ki, Azərbaycanda fərqli bir təcrübə vardı:** "Biz 1994-cü ildə atəşkəs rejiminə nail olduq. Amma hansısa şərtlər Ermənistan tərəfindən qəbul olunmurdu. Prezidentin köməkçisi öz mövqeyini göstərmək üçün lazımsız, hətta əsassız olaraq Azərbaycan və Qarabağ mövzusuna şərhlər verir".

**T.Zülfüqarov əmindir ki, Medinski öz mövqeyinə hansısa arqumentlər, dəlillər gətirmək üçün bu misalı gətirib. Sabiq nazir qeyd edib ki, Putinin köməkçisinin sözlərinin siyasi baxımdan əhəmiyyəti yoxdur:** "Məsələ Azərbaycan tərəfindən beynəlxalq qanunlara uyğun olaraq öz həllini çoxdan tapıb. Kimin məsələni necə şərh etməsi önəmli deyil. Biz hər sözə fikir versək, elə bil ki, kiməsə nəsə sübut etmək istəyirik kimi görünəcək. Onlar gedib öz problemləri ilə məşğul olsunlar".

**Siyasi şərhçi Aqşin Kərimovun fikrincə, Kremldən Medinskinin timsalında verilən açıqlama Rusiyanın Ukraynada apardığı hərbi kampaniya nəticəsində geosiyasi kövrəkliyə düşməsini izah edir:** "Rusiya buna görə də özünün güc olmaq iddiasının zəifləmədiyini, xarici və müdafiə siyasətini postsovet məkanı üzərində tənzimlədiyini göstərən informasiya əməliyyatlarına ehtiyac duyur. Bununla belə, Rusiyanın hekayələri Azərbaycanın suverenlik, müstəqillik, təhlükəsizlik sahələrinə müdaxilə edə bilmək imkanlarından uzaqdır. Rusiyanın Azərbaycanın Qarabağ münaqişəsini bitirməklə yaratdığı reallıqları dəyişdirmək potensialı və müqavimət ruhu yoxdur".

**Bundan başqa, təhlilçinin qənaətinə görə, ümumiyyətlə, Rusiya xarici siyasətinin Cənubi Qafqaz oxu üzrə dinamikası çoxdan dəyişikliyə məruz qalıb ki, bu da Kremli Azərbaycanla əməkdaşlıq sahələrini genişləndirməyə sövq edir. Onun fikrincə, Rusiya Azərbaycanla Ermənistanın sülh gündəliyinə Moskva mərkəzli tezislər əlavə etməyə çalışır:** "Mayın axırlarında dünyanın kəşfiyyat orqanlarının şefləri Rusiya Təhlükəsizlik Forumuna toplaşmışdı. Yəqin ki, Medinskinin açıqlaması qapalı görüşlərdəki məxfi qrifli məlumatların paylaşılmasına, onun Moskva tərəfindən təhlilinə və prosesdə Azərbaycanı hansısa oyuna cəlb etmək cəhdlərinə əsaslanır".

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

## Kremlin Medinski adlı ideoloqu

### Onun siyasi ritorikasında "daxili düşmən" anlayışı xüsusi yer tutur

**Medinski Putin Rusiyasının əsas ideoloqlarından biri kimi tanınır. O, 1970-ci il iyulun 18-də Ukraynanın Smila şəhərində anadan olub. Ailəsi Rusiya hərbi dairəsinə bağlı olduğundan uşaq yaşlarında Moskva vilayətinə köçüb. Təhsilini Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda (MGIMO) başa vurub. Xarici siyasət, informasiya və tarix sahələrində ixtisaslaşan Medinski daha sonra elmi fəaliyyətini davam etdirib.**

Medinski 1997-ci ildə siyasi elmlər namizədi, 2000-ci ildə isə tarix üzrə elmlər doktoru elmi dərəcələri alıb. Lakin onun elmi dissertasiyaları zaman-zaman plagiat ittihamları ilə gündəmə gəlib. Siyasi karyerasına 2000-ci illərin əvvəllərində başlayan Medinski "Vahid Rusiya" Partiyası sıralarında Dövlət Dumasına deputat seçilib. O, parlamentdə əsasən informasiya siyasəti və mədəniyyət sahələrində fəaliyyət göstərib. 2012-ci ildə Rusiya Federasiyasının mədəniyyət naziri vəzifəsinə təyin olunub və 2020-ci ilə qədər bu postu tutub.

Nazir olduğu müddətdə o, Rusiya tarixinin "patriotik şərhi" üzərində xüsusi təkid göstərib. Tarix dərsliklərində Stalin dövrünə və sovet keçmişinə yenidən baxılması təşəbbüslərini irəli sürüb. Eyni zamanda Sovet İttifaqının İkinci Dünya müharibəsindəki rolunu ideallaşdıran tədbirlərə dəstək verib. Bu yanaşma bir sıra liberal və beynəlxalq dairələr tərəfindən "tarixin siyasiləşdirilməsi" kimi qiymətləndirilib.

2020-ci ildə Prezident Vladimir Putinin köməkçisi vəzifəsinə gətirilən Medinski hazırda Kremlin mədəniyyət, tarix və humanitar siyasətini formalaşdıran əsas şəxslərdən biridir.

Medinski Rusiya mediasında və xüsusən də təbliğatyönümlü platformalarda tez-tez çıxış edir. O, Rusiyanın "ənənəvi dəyərlər", "tarixi yaddaşın qorunması" və "Qərb təbliğatına qarşı informasiya müqaviməti" konseptlərinin başlıca simalarından biri hesab olunur.

Keçmiş nazirin təşəbbüsü ilə yüzlərlə film və sənədli layihə dövlət vəsaiti hesabına maliyyələşdirilib. Bu layihələrin əksəriyyətində Qərb mənfi obrazlarla təqdim olunur, Rusiya ordusu və liderləri isə qəhrəmanlaşdırılır. Ekspertlərə görə, bu filmlər gənc nəslin ideoloji formalaşdırılmasına xidmət edir.

Medinskinin siyasi ritorikasında "daxili düşmən" anlayışı xüsusi yer tutur. O, mütəmadi olaraq liberal fikirli ziyalıları və Qərblə əməkdaşlığı müdafiə edən şəxsləri "ideoloji sabotajçılar" adlandırır.

Müşahidəçilər hesab edir ki, Medinski hazırda təkcə Putinin köməkçisi yox, həm də Kremlin rəsmi ideoloqlarından biridir.

Yeni Müsavat
N 99 (8709) 11 iyun 2025

# Azərbaycanlıların çalışdığı bazara hücum




Moskva vilayətində azərbaycanlıların çalışdığı bazara silahlı hücum olub.

APA xəbər verir ki, insident Moskva vilayətinin Şolkovo rayonunun Fryanovo qəsəbəsində baş verib.

Həmyerlilərimizin çalışdığı bazara iki nəfər əlində “Vinçester” markalı odlu silahla daxil olaraq bazarda çalışan azərbaycanlılar daxil olmaqla qeyri-rus millətindən olanları hədələyiblər.

Bazara silahlı hücumun və azərbaycanlılar daxil olmaqla bazarda çalışan miqrantların silahla hədələnməsinin görüntüləri ətrafdakı obyektlərin müşahidə kamerasından lentə alınıb.

Bazarda çalışan Fryanovanın yerli sakini Svetlana Məmmədova həmin şəxslərə müqavimət göstərib.

“Bazara iki qardaş, Sergey və Aleksandr Qavrilovlar silahla hücum elədilər. Onlar avtomobildən düşüb silahı bazarda çalışan miqrantların üzərinə tuşladılar. Mən onları sakitləşdirməyə çalışdım. Lakin onlar məni silahın küt hissəsi ilə vurdular. Onlar bizim qəsəbədə qeyri-rus millətindən olan şəxslərin yaşamasını, bazarda çalışmasını istəmirlər”, - Svetlana Məmmədova bildirib.

**Rusiyada yaşayan vəkil Ələkbər Qarayev Fryanovada yaşayan azərbaycanlıların ona bu videogörüntüləri göndərdiklərini söyləyib:** “Həmin videolardan görünür ki, həqiqətən də şəxs əlində "Vinçester" silahı ilə girir bazara, hətta silahı onların üstünə yönəldir. Bu silahla atəş açmaq istəyir. Bu, həqiqətən də çox qorxulu haldır. Doğrusu, mən bura gələndə elə fikirləşdim ki, 90-cı illərin əvvəlindəyəm. Əlbəttə ki, lazımdır ki, müvafiq orqanlar bununla məşğul olsunlar. Çünki konstitusiya qarşısında bütün millətlər eyni hüquqdadır, heç kimin hüququ pozulmamalıdır".

**Svetlana Məmmədova polisə baş vermiş insidentlə bağlı ərizə yazdığını bildirib:** “Lakin polis hələ ki heç bir tədbir görməyib. Kamera insidenti çəkib, videoda hər şey var. Polis heç nə demir, ancaq şikayət ərizəsini qəbul edib. Bu, insident birinci hal deyil. Həmin qardaşlar tez-tez bazara hücum edir”.

Rusiya Daxili İşlər Nazirliyinin Moskva vilayəti üzrə Baş İdarəsinin Fryanovo polis bölməsindən məlum insidentlə bağlı araşdırma aparıldığı bildirilib.

# Tehrandan Zəngəzurla bağlı əcaib mövqe

**İran Zəngəzur dəhlizinin yaradılması cəhdinin qarşısını alıb.**

Bunu İranın ali rəhbərinin beynəlxalq məsələlər üzrə müşaviri Əli Əkbər Vilayəti deyib.

O bildirib ki, İran heç vaxt indiki qədər güclü, müstəqil və nüfuzlu olmayıb:

“Bu gücün ən bariz əlamətlərindən biri də İranın Cənubi Qafqaz regionundakı böhrana çevik və qətiyyətli reaksiya verməsi idi. Bəzi ölkələr Zəngəzur dəhlizinin yaradılması bəhanəsi ilə Naxçıvanı Ermənistan ərazisi vasitəsilə Azərbaycanla birləşdirməyə cəhd göstərdikdə, bu layihə əslində İran dəhlizinin parçalanması və Avropaya yolun əngəllənməsi demək idi, İran bu plana qətiyyətlə qarşı çıxdı və onun həyata keçirilməsini pozdu”.

Vilayəti vurğulayıb ki, Zəngəzur dəhlizi daxilində son məqsəd təkcə İranı şimal istiqamətindən kəsmək deyil, həm də cənubdan Rusiya ətrafındakı halqanı mühasirəyə alıb bağlamaq idi: “Lakin bu layihə də uğursuzluğa düçar oldu”.

# Paşinyanın yalançı sülhü - Qarabağı “itirilmiş vətən” elan etdi

## Ermənistanın baş naziri təxribatçı mövqeyi ilə son günlər səsləndirdiyi sülh bəyanatlarının üstündən xətt çəkdi; **deputat:** “Rəsmi Bakı gizlətmir ki...”

**Ermənistanın baş naziri Nikol Paşinyan yenə də “özünə qayıdır”. “Fakt budur ki, 44 günlük müharibə nəticəsində vətənimizin bir hissəsini itirmişik, eyni zamanda daha suveren, daha müstəqil, özümüzü təmin edən dövlət əldə etmişik”.**



44 günlük müharibə ilə bağlı müzakirələrin birində Nikol Paşinyan “itirilmiş vətən” haqda suallara cavab verərək demişdi ki, “Şuşa darıxdırıcı, bədbəxt şəhərdir”. “Bizə deyirlər, Şuşanı kim satdı? Şuşanı satdılarsa da, son 30 ildə satmışdılar, çünki Şuşa bədbəxt, darıxdırıcı şəhər idi. Şuşaya ehtiyacınız varmı? Lazım idisə, niyə bu vəziyyətdə idi?”, - Paşinyan deyib. Ümumiyyətlə, son illər bəyanatlarında dəfələrlə “Qarabağ Azərbaycandır” deyən bu siyasi tipin əsl məramının nə olduğu bilinmir.

Qeyd edək ki, N.Paşinyan Qurban bayramı münasibətilə Türkiyə Prezidenti Ərdoğana zəng edərək təbriklərini çatdırıb və bəzi regional məsələlər də müzakirə edilib. Bəzi ekspertlər bunu Paşinyan hökumətinin çıxılmaz durumda olması, mövcud reallığı dərk etməsi kimi şərh etsələr də, baş nazirin təbrikini növbəti erməni hiyləgərliyi kimi şərh edənlər də var. Barışdan dəm vuran Paşinyan “vətənimizin bir hissəsini itirmişik” dedikdə hansı vətəndən danışır”? Həm revanşçı ermənilərə qarşı müharibə elan etdiyi görüntüsü yaradan Paşinyan bu kimi bəyanatla onların dəyirmanına su tökmürmü?

Deputat Sahib Alıyev “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, Paşinyanın Qurban bayramı təbriki kimi, Qarabağı “itirilmiş vətən” adlandırması da eyni məqsədə xidmət edir: “Söhbət Ermənistanda 2026-cı ilin 7 iyununda keçiriləcək parlament seçkisindən gedir. Paşinyan elektoratın böyük bir hissəsinin növbəti savaşın özləri üçün nə ilə nəticələnəcəyinin fərqində olduqlarından türk düşmənçiliyini davam etdirmək şərtilə sülh istədiyini yaxşı bilir. Ona görə də həmən o sülh istəyən çoxluğa aşılamaq istəyir ki, ancaq özü Azərbaycan və ilk növbədə də Türkiyə ilə dil tapmaq gücündədir. Paşinyanın "itirilmiş vətən"i Medinskinin həmin o “mübahisəli ərazi” mahnılarının nəqarətidir. Yəni o, Moskvaya da onların çətiri altından çıxmaq fikrindən daşındığını, əgər gərəkən dəstəyi versələr, yenidən “Real Ermənistan” mahnısını “Böyük Ermənistan”la əvəzləyəcəyinə hazır olduğunu çatdırır".

**S.Alıyev qeyd etdi ki, Azərbaycanın tələbləri yerinə yetirilməyənədək Ermənistanla hər hansı bir sülh anlaşması mümkünsüzdür:** "Ermənistan baş nazirinin Qurban bayramı təbrikinin arxasında gizlənən gözləntilərinə gəldikdə, rəsmi Bakı gizlətmir ki, biz passiv revanşistlərlə, aktiv revanşistlərə ağ və qara ilana necə yanaşırıqsa, eynən o cür yanaşırıq”.

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu isə xatırlatdı ki, Nikol Paşinyan İkinci Qarabağ müharibəsindən sonra mövcud reallığı qəbul etsə də, hər bir erməni kimi, “vətənimizin bir hissəsini itirmişik” saxta təfəkküründən imtina etməyib:** “Paşinyanın radikal müxalifətdən və kilsədən fərqi yalnız ondadır ki, baş nazirin rəqibləri Azərbaycanla sülhün əleyhinədirlər, o isə sülh olmadan Ermənistanın təhlükəsizliyinin təmin olunmayacağı qənaətindədir”. **E.Şahinoğlu bildirdi ki, Paşinyan konkret addımlar atmalıdır:** “İkinci Qarabağ müharibəsinə qədər Şuşada içkili halda yallı gedən, "Qarabağ Ermənistandır" deyən, Cəbrayıla yol çəkməkdən dəm vuran, indi isə Azərbaycan xalqını Qurban bayramı münasibətilə təbrik edən Paşinyan özündə cəsarət tapıb konstitusiyanı dəyişdirməklə bağlı qərar verməlidir. Sülhü yubatmaq Paşinyanın özünün ziyanınadır. Onun gələn ilin parlament seçkisinə qədər Azərbaycan və Türkiyə ilə münasibətləri nizamlamaq imkanı var. Bu halda bayramlar münasibətilə qarşılıqlı təbriklərin əhəmiyyəti olacaq".

**Politoloq qeyd etdi ki, bu arada, Nikol Paşinyan parlament seçkisi öncəsi rəqiblərinin üzərinə getməyə başlayıb:** “O, qəti şəkildə II Qareginin könüllü subaylıq əhdini pozaraq uşağı olması xəbərini ancaq kəşfiyyat mənbələrindən əldə edə bilərdi. Qareginin övladının olduğunu ya Ermənistanın kəşfiyyat strukturları Paşinyana veriblər, ya da bunun arxasında xarici ölkə kəşfiyyat stukturlarından biri dayanır. Söhbət o ölkələrin kəşfiyyat strukturlarından gedir ki, Nikol Paşinyanın hakimiyyətini itirməsini və Ermənistanda Rusiyaya bağlı güclərin hakimiyyətə gəlməsini istəmirlər. Nikol Paşinyan II Qareginlə yanaşı, keçmiş prezident Robert Köçəryanın üzərinə də getməyə başlayaraq, onun korrupsiya əməllərini faş edə biləcəyi xəbərdarlığını edib. Böyük ehtimalla II Qareginin övladının varlığı məlumatını Paşinyana ötürən mənbə Robert Köçəryanın hakimiyyəti dövründə və sonrasında korrupsiya əməlləri barədə də əllərindəki məlumatları Ermənistanın baş nazirinə ötürüblər. Paşinyan bu məlumatlar əsasında parlament seçkisi öncəsində rəqiblərini əzib keçməyə çalışacaq. Onun bu fəaliyyəti bizim də xeyrimizədir”.

Yeri gəlmişkən, Rusiya rəsmilərinin ard-arda İrəvana səfərlər etməsi, həmçinin rusiyalı deputatların Gümrüdəki hərbi bazanı ziyarəti də N.Paşinyanın radikallaşmasın təkan verən amillərdən sayıla bilər. Rusiya XİN başçısı S.Lavrovun Ermənistan səfəri zamanı 7 rayonun işğal edilməsində rus silahlarının rolunu xatırlatması da sıradan məsələ deyildi. Paralel şəkildə Rusiyadan ölkəmizə qarşı təxribatçı mövqelərin çoxalması Paşinyanı həvəsləndirməkdədir. N.Paşinyanın Qarabağı Azərbaycan ərazisi kimi tanıdığını Rusiya rəhbərliyi dəfələrlə Ermənistan xalqının başına çaxıblar.

N.Paşinyanın yenidən “val”ı dəyişməsinə yəqin ki, Bakının sərt cavabı olacaq. Bu cür təxribatçı mövqeyi ilə erməni baş nazir son zamanlar atdığı müsbət addımların da üstündən xətt çəkmiş olur...

Bu arada Ermənistan silahlı birləşmələrinin aktivliyi müşahidə olunub. Axar.az xəbər verir ki, bu barədə "44th Ranger Regiment" Telegram kanalı məlumat yayıb.

Kanalın yaydığı görüntülərdə 3 ədəd hərbi yük maşını və 5 ədəd topun hərbi hissədən kənarda yerləşdiyi görünür.

❑ **E.PAŞASOY, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 99 (8709) 11 iyun 2025

**Rəsmi Ankaranın Rusiya-Ukrayna danışıqlarında ciddi səylər göstərdiyi bir vaxtda "Qazprom"un Türkiyədə qazpaylayıcı qovşaq yaratmaq planlarından imtina etməsi haqlı suallar doğurub. Türkiyə qovşağının (habının) yaradılması ideyası ildə 55 milyard kubmetr gücündə, Rusiya, İran və Azərbaycandan Türkiyəyə qaz tədarük edəcək bir mərkəzin formalaşdırılmasını nəzərdə tuturdu.**

# Putin Türkiyədən bu iki səbəbdən üz döndərdi

## "Qazprom"un bu ölkədə qazpaylayıcı hab yaratmaq planlarından imtina etməsi haqlı suallar doğurub





Rusiya Prezidenti Vladimir Putinin açıq dəstək verdiyi layihəni gözlənilmədən dayandırması haqda "Bloomberg" yazıb. Bildirilir ki, "Qazprom" aylarla bu variantları nəzərdən keçirdikdən sonra "şirkət bunun qeyri-praktik variant" olduğu qənaətinə gəldi və əsasən işini dayandırdı.

2022-ci ilin oktyabrında "Şimal axını" və "Şimal axını 2" qaz kəmərlərində qazın birbaşa Avropaya çatdırılmasını mümkünsüz edən partlayışlardan sonra bu təkliflə çıxış edib. Ankaranın müsbət qarşıladığı təklifin layihə formasına gətirilməsi üçün işlər başlanıb. 2023-cü ilin aprelində Türkiyə qanunvericiliyinə habın fəaliyyəti üçün zəruri olan dəyişikliklər edilib. Yayda isə Rusiyanın "Qazprom" şirkəti qaz habı layihəsinə dair yol xəritəsini Türkiyə tərəfinə təqdim edib. Bildirilirdi ki, Rusiya əsas təchizatçı imkanından istifadə etməklə qaz habında rəhbərliyə, baş nəzarətçi roluna iddialıdır. Türkiyə isə öz ərazisində yaradılacaq strateji əhəmiyyətli platformaya özü nəzarət və rəhbərlik etmək niyyətindədir. Bundan əlavə, tərəflər arasında ciddi müzakirə olunan daha bir məsələ kimi layihənin maliyyələşdirilməsi önə çəkilirdi. Rusiya rəhbərlik və nəzarət imkanı olmasa layihənin icrasına vəsait yatırmaq istəmirdi, Türkiyə isə layihənin yükünü təkbaşına çəkmək imkanında deyildi. Mənbələr qeyd edirlər ki, Türkiyə mərkəzli qaz qovşağı yaratmaq ideyası "Qazprom"dan deyil, Kremlə yaxın siyasi dairələrdə yarana bilərdi. Bir mənbəyə görə, şirkət rəhbərləri əvvəlcə Putinin bu təklifini eşidəndə təəccübləniblər. Təklif öz qiymət indeksi ilə regional qaz ticarət mərkəzi olmaq istəyən Türkiyədə də dəstək qazanıb. Amma şirkətdəki bəziləri türk planının işə yarayacağına əvvəldən şübhə ilə yanaşırdılar.

**Yada salaq ki, Türkiyədən Avropaya qaz ötürən iki xətt var:** ""Türk axını" və Cənub Qaz Dəhlizinin Avropa komponenti olan TAP. Bundan əlavə, əvvəllər Rusiya qazını Balkanlardan Türkiyəyə çatdıran Trans-Balkan qaz kəmərinin işə salınması da mümkün idi ki, ildə 8-10 milyard kubmetr qazın Avropaya ötürülməsinə imkan verərdi. Rusiya mediasının bu qərara reaksiyası da maraq doğurur. Bəzi media orqanları iddia edirlər ki, guya Ankara Rusiyanın düşdüyü vəziyyətdən istifadə edərək habın yaradılmasında əsas nəzarətçi olmaq istəyir. Bunu az qala "Rusiyaya kələk gəlmək" kimi izah edirlər. Mediada o da yazılır ki, ola bilsin, Kreml amerikalılarla danışıqlardan sonra belə bir qərar verib. Bu o deməkdir ki, ABŞ Rusiya qazının Avropaya getməsini istəyir, lakin onların nəzarəti altında... O da mümkündür ki, Kreml bu qaz habının Türkiyənin həm regionda, həm də dünyada rolunun daha da artmasında narahat olduğu üçün bu layihədən vaz keçdi... Amma bunu niyə növbəti İstanbul danışıqlarının gündəmdə olduğu vaxtda tirajlanması da diqqət çəkir.

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Azər Badamov "Yeni Müsavat"a bildirdi ki, Türkiyənin qaz habına çevrilməsi həm Türkiyə, həm də Rusiya üçün çox əhəmiyyətli layihədir:** "Bu, Rusiya qazının Avropa bazarına çatdırılması üçün çox vacibdir. Çünki "Şimal axını" və "Şimal axını-2"nin dayanmasından sonra Rusiya qazının Avropaya çatdırılması üçün Türkiyə üzərindən istifadə olunur. Türkiyənin qaz habına çevrilməsi Rusiyanın ixrac imkanını artırır. Amma indi "Qazprom"un Türkiyənin qaz qovşağına çevrilməsinin qeyri-praktik variant olduğu qənaətinə gəldiyini və işini dayandırdığını bildirir".

**Deputat hesab edir ki, layihənin dayandırılmasının iki səbəbi ola bilər:** "Birinci səbəbin Rusiyanın əlavə investisiyalar yatırmağa maliyyə imkanlarının məhdudlaşması ilə bağlı olduğunu hesab edirəm. Çünki üç ildən çox çəkən və sonu görünməyən Rusiya- Ukrayna müharibəsi böyük maliyyə resursları hesabına davam etdirilir. Həm də müharibə ilə bağlı Qərbin tətbiq etdiyi iqtisadi sanksiyalar Rusiyanın gəlirlərini kifayət qədər azaldıb. Bu baxımdan bu gün Rusiyanın yeni beynəlxalq layihələrə investisiyaların yatırılması üçün iqtisadi imkanları məhdudlaşdığından Türkiyənin qaz habına çevrilməsi layihəsini dayandırmaq məcburiyyətdə qala bilər.

İkinci səbəb isə qaz habına çevrilməsi Türkiyənin həm də siyasi təsir imkanlarını gücləndirəcəkdi. Rusiya isə Türkiyənin siyasi və iqtisadi imkanlarının çox güclənməsini istəmir. Bu baxımdan qeyd etdiyim iki səbəb Türkiyənin qaz habı layihəsinin dayanmasının əsasında durduğunu hesab edirəm".

**Siyasi təhlilçi Sona Əliyevanın fikrincə, Rusiya bu qovşağa "yox" deməklə Rumıniya qarşısında "yaşıl işıq" yandırdı:** ""Qazprom" Kremlin əsas təzyiq rıçaqlarından biri olsa da, şirkətin beyin mərkəzi bir sıra hallarda ölkə rəhbərliyi ilə fikir toqquşması yaşaya bilir. Rəsmi Moskva qardaş ölkədəki habın maliyyələşdirilməsi təklifini səsləndirərkən bir çox nüansa ümid edirdi. Birincisi, bunu Türkiyə üzərindən Qərbə təzyiq vasitəsi kimi istifadə edəcəkdi. İkincisi, Türkiyənin özünə qarşı iqtisadi təzyiq aləti kimi sınaqdan keçirəcəkdi. Amma Ankara bunu anlayan kimi şərtləri öz xeyrinə dəyişməyi bacardı. Habın iş konsepsiyasını tamamilə öz nəzarəti altına aldı. Hətta Türkiyə qovşağının qısa zamanda fəaliyyətini istəyən bəzi Qərb investorlarını da oyundankənar vəziyyətə saldı. Avropalı investorlar hadisələrin sonrakı gedişində Türkiyənin bu addımını başa düşüb susdular. Amma Rusiya habın yalnız maliyyə donoru kimi görünmək istəmirdi. Qovşağın bütün nəzarət mexanizmini öz əlində cəmləməyi hədəfləmişdi. Ola bilsin ki, Putin ilkin mərhələdə Ərdoğanın hansı reaksiya göstərəcəyini təyin etmək üçün belə bir təkliflə çıxış etmişdi. İstənilən halda, Ankara bu tələyə düşmədi. Üstəlik, Türkiyə qovşağı Rusiya qazının Avropaya nəqli üçün indiki mərhələdə ən sərfəli variant idi. Rusiya bu qovşağa yox deməklə, Balkanlarda və Şərqi Avropadakı qaz dominantlığını Rumıniyaya ötürmüş oldu. Digər tərəfdən, Qərbdəki müəyyən dairələr də Rusiyanı qaz oyunundan sıxışdırıb çıxara bilərdilər. Bu da Ukrayna savaşı fonunda üzü qışa doğru Rusiyaya daha bir soyuq duş effekti verəcək. İndi Rusiyanın qaz habındakı yerini eyni variantla İran doldurmaq istəyir. Amma Tehranın da istəyi gözündə qalacaq. Molla rejimi Qərbə qaz satmaq istəyir, amma bunu Türkiyənin qanadları altında etmək niyyətindən uzaqdır".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

## Rusiya üçün dağıdıcı sanksiyalar

**"Rusiyanı ədalətli sülhə məcbur etmək olar. Bunun üçün anti-Rusiya sanksiyalarını gücləndirmək və Ukraynanın müdafiə qabiliyyətini artırmaq lazımdır".**

Bu sözləri Ukraynanın xarici işlər naziri Andrey Sibiqa litvalı həmkarı Kestutis Budrislə keçirdiyi brifinqdə bildirib. "Sanksiyaların təzyiqini artıra biləcəyimiz kifayət qədər sahələr və qollar var. Bu, Rusiya iqtisadiyyatı üçün dağıdıcı olmalıdır", - Sibiqa deyib.

Qeyd edək ki, senator Qrehemin təşəbbüsü ilə Rusiyaya qarşı yeni sanksiyalar hazırlanıb, məğzi də budur ki, Rusiyadan neft-qaz, neft məhsulları və digər təbii sərvətlər alan ölkələrə 500%-lik tarif tətbiq edilməlidir. Çox vahiməli səslənsə də, içiboş, mənasız və yerinə yetirilməsi mümkünsüz olan məsələdir. İqtisadçı ekspert Natiq Cəfərli belə deyib.

O bildirib ki, Rusiyadan ən çox qaz alan ölkə Avropada Fransadır, neft-qaz alan ölkələr sırasında Macarıstan, Slovakiya, İtaliya, hətta Almaniya və s. dövlətlər var: "ABŞ onlara 500% tarif tətbiq edəcək?! Və ya, ən çox neft alan ölkə Hindistandır, onlara 500%-lik tarif necə tətbiq olunacaq?! Bəs Çin - indi Vaşinqtonla Pekin Londonda görüşür, tarif anlaşması olacaq, o zaman Çinə 500%-lik tarif necə tətbiq edilə bilər axı?! Əgər belə bir qanun qəbul edilsə, o zaman ABŞ özü-özünə də sanksiya qəbul etməlidir - ABŞ urana olan tələbatının, az qala, yarısını Rusiyadan alır. Absurddur, deyilmi?! Amma insanlar dərin analiz edə bilmir, qəhrəman Ukrayna xalqında illüziyalar yaranır ki, bu sanksiyalarla Rusiyanı çökdürmək mümkün olacaq".

## Orban Moskvanı lağa qoydu

**"Ukraynadakı müharibə qlobal münaqişəyə çevrilməyəcək. Bunun səbəbi Rusiyanın kifayət qədər zəif olmasıdır". Axar.az xəbər verir ki, bunu Macarıstanın baş naziri Viktor Orban deyib.**

"Ruslar bunun üçün çox zəifdirlər. Onlar heç Ukraynanı məğlub edə bilmirlər, ona görə də NATO-ya qarşı ciddi hücum etmək gücündə deyillər", - Orban bildirib.

Orban əlavə edib ki, Avropa güclü olmalıdır, çünki ruslar yalnız güc dilini anlayır.

YENİ MÜSAVAT
N 99 (8709) 11 iyun 2025



# İşıq və qazın qiyməti ilə bağlı yeni qanun

## Sabit aylıq tarifi nə deməkdir?

**Elektrik enerjisi ilə əlaqədar sabit aylıq tarif tətbiq ediləcək. Bu, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin iclasında müzakirəyə çıxarılan "Elektroenergetika haqqında" Qanuna təklif edilən dəyişiklikdə əksini tapıb.**

Layihəyə əsasən, sabit tarif elektrik enerjisinin istehlak səviyyəsindən asılı olmayan sabit xarakterli xərclərin tənzimləyici tərəfindən müəyyənləşdirilən hissəsinin qarşılanması məqsədilə hər bir istehlakçı üzrə tətbiq olunan aylıq tarif elementidir.

Qeyd edilib ki, qanun layihəsi elektroenergetika sektorunda tarif tənzimləmələri istiqamətində sabit tarifin tətbiqi məqsədilə hazırlanıb. Beynəlxalq təcrübədə elektrik enerjisinin tarif və qiymətlərinin tənzimlənməsi zamanı sabit tarifin tətbiqi halları mövcuddur. Sabit tarifin əsas mahiyyəti şəbəkəyə qoşulan istehlakçıların sabit xərc şəklində aylıq müəyyən vəsait ödəməsindən ibarətdir. Sabit tarif istehlak miqdarı ilə bağlı deyil, istehlakçı kateqoriyasından asılı olmayaraq tətbiq edilir və paylayıcı sistem operatorunun müəyyən xərclərinin qarşılanması üçün istifadə olunur.

Qanun layihəsi sabit tarifi elektrik enerjisinin istehlak səviyyəsindən asılı olmayan sabit xarakterli xərclərin tənzimləyici tərəfindən müəyyənləşdirilən hissəsinin qarşılanması məqsədilə hər bir istehlakçı üzrə tətbiq olunan aylıq tarif elementi kimi təsbit edir.

Qaz təchizatı sektorunda da tənzimlənən qiymətlər (tariflər) müəyyənləşir, bu sıraya sabit tarif daxil edilir.

Bu da "Qaz təchizatı haqqında" yeni qanun layihəsində əksini tapıb.

Layihəyə əsasən, qaz təchizatı sektorunda tənzimlənən qiymətlər (tariflər) 2028-ci il iyulun 1-dən tənzimləyici tərəfindən müəyyən ediləcək və onun rəsmi internet saytında dərc olunacaq.

Qaz təchizatı sektorunda tənzimlənən qiymətlər (tariflər) aşağıdakılardır:
- qazın topdansatış tarifləri;
- qazın nəqli tarifləri;
- qazın saxlanması xidmətlərinin tarifləri;
- qazın paylanması tarifləri;
- istehlakçılara qazın pərakəndə satış tarifləri;
- qazın nəqli şəbəkəsinə qoşulma xidmətlərinin qiymətləri;
- qazpaylayıcı şəbəkəyə qoşulma xidmətlərinin qiymətləri;
- sabit tarif.

Sabit tarif qazın istehlak səviyyəsindən asılı olmayan sabit xarakterli xərclərin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyənləşdirilən hissəsinin qarşılanması məqsədilə hər bir istehlakçı üzrə tətbiq olunan aylıq tarif elementi olacaq.

Qaz təchizatı sektorunda qiymətlərin (tariflərin) müəyyən olunması zamanı nəzərə alınmalı olan itkilər sistem operatorlarının qaz itkilərinin hesabat dövrü üçün normativ göstəricilərinin müəyyənləşdirilməsi qaydalarına uyğun olaraq hesablanacaq. Qaz təchizatı subyektləri və onlarla istehlakçılar arasında qarşılıqlı hesablaşmaların aparılması məqsədilə qazın ölçülməsi ilə bağlı məsələlər kommersiya uçotu qaydaları ilə tənzimlənəcək.

Keçid maddələrinə əsasən, qazın topdansatış, nəqli, saxlanması xidmətləri, istehlakçılara pərakəndə satış, qazın nəqli şəbəkəsinə qoşulma xidmətləri, və qazpaylayıcı şəbəkəyə qoşulma xidmətlərinin qiymətləri, o cümlədən sabit tarif bu qanun qüvvəyə mindiyi gündən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən tənzimlənəcək. Qazın paylanması tarifləri isə 2027-ci il yanvarın 1-dən 2028-ci il iyulun 1-dək müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən tənzimlənəcək. Qeyd edilənlər nəzərə alınmaqla, tənzimləyicinin səlahiyyətləri 2028-ci il iyulun 1-dək müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçiriləcək.

❑ **"Yeni Müsavat"**

**Bu il havaların qeyri-sabit keçməsi və aramsız yağan yağışların ən ciddi təsiri arıçılığa olub. Bildirilir ki, ölkədə arıçılığın inkişaf etdiyi rayonların demək olar ki, hamısında vəziyyət eynidir, arıların "çölə çıxa bilməməsi" bal istehsalında məhsuldarlığa aşağı salıb. Ekspertlərə görə, iyun başlayandan da havaların yağışlı olması arıçılara təsir edib, indi əsas ümid bundan sonra havaların stabilləşməsinədir.**

# Ölkəmizdəki arıları oliqarxların tamahı öldürür - təfərrüat

## Arıçı deyir ki, bu işə qeyri-peşəkar şəkildə yanaşırlar, həm xəstəliyi yayırlar, həm də arıları qırırlar; "Rusiya adı ilə Çin istehsalı olan dərmanlar gətirilir, bu da..."



O da bildirilir ki, zatən son illər ölkə üzrə bal istehsalında 30-40%-dən çox azalma vardı, arı ailələrinin də sayı azalıb. Arıçılar bunu arıların azalmasını iqlim dəyişikliyi ilə izah edirlər. Arıların azalmasının kənd təsərrüfatına da mənfi təsiri çoxdur. Bitkilərin təxminən 70%-i arıların köməyi ilə tozlanır. Məsələn, alma, armud, çiyələk və digər çiçəkli bitkilər arıların tozlanması nəticəsində yetişir. Tozlanma prosesi azalarsa, məhsul istehsalı da azalır. Yəni arıların azalması təkcə bal istehsalına deyil, kənd təsərrüfatı məhsullarının qıtlaşmasına da səbəb ola bilər.

Maraqlıdır ki, arı ailələrinin sayının azalmasını arıçıların peşəkarlıq səviyyəsinin aşağı olması ilə əlaqələndirənlər də var. Arıçılar hər mövsümdə xəstəliklərlə mübarizə aparmalıdırlar. Əgər arıçı peşəkar deyilsə və kifayət qədər biliklərə sahib deyilsə, arı ailələrinin saxlanılması və xəstəliklərlə mübarizə səmərəsiz olur. Arılara vaxtında gigiyenik tədbirlər aparılmasa, arılarda xəstəliklər artır. Həmçinin vaxtında köçürmə prosesi aparılmasa, nektar tapmaq çətinləşir. Bəzi imkanlı şəxslər pul qazanmaq məqsədilə bu sahəyə girişiblər, amma peşəkar arıçılar tapmaq çətin olduğu üçün arı ailələri bu sahədə zəif bilgiləri olanların ucbatından qırılırlar. Ona görə də hətta belə təkliflər var ki, arıçılar üçün xüsusi kurslar təşkil edilməli və burada iştirakçılar müasir texnologiyaların tətbiqini öyrənərək sertifikat almalıdırlar.

Məlumat üçün bildirək ki, ötən il 30 min 601 təsərrüfatda mövcud olan 579 min arı ailəsindən 5166,3 ton bal, 132,1 ton mum, 8,5 ton vərəmum, 16,8 ton güləm və 239,3 kiloqram arı südü əldə olunub. Dövlət Statistika Komitəsindən bildirilib ki, istehsalçılar üzrə balın 1 kiloqramının orta satış qiyməti 28,6 manat, mumun - 16,5 manat, vərəmumun - 109,7 manat, güləmin - 140,9 manat, arı südünün 1 qramının orta satış qiyməti isə 7 manat olub. 2023-cü illə müqayisədə 2024-cü ildə arı ailələrinin sayı 3,1 faiz, mum istehsalı 23,5 faiz, vərəmum istehsalı 43 faiz, arı südü istehsalı 14,9 faiz, arıçılıqla məşğul olan təsərrüfatların hər birinə orta hesabla düşən arı ailələrinin sayı 2,4 faiz azalsa da, bal istehsalı 13,5 faiz, güləm istehsalı 88,8 faiz artıb. Arı ailələrinin sayında və bəzi arıçılıq məhsullarının istehsalında azalma əsasən arı xəstəlikləri ilə əlaqədar olub.

**Azərbaycan Arıçılar Assosiasiyasının İdarə Heyətinin sədr müavini Sabir Mustafayev mövzu ilə bağlı "Yeni Müsavat"a fikrini bölüşüb:** "Kimlərin bu işə əl qoyduğunu dəqiq deyə bilməyəcəm. Amma yaxşı arıçı özünə arı saxlayır. Onlar isə bu işə qeyri-peşəkar şəkildə yanaşırlar, həm xəstəliyi yayırlar, həm də arıları qırırlar.

Ölkəmizə keyfiyyətsiz dərmanlar gətirilir. Rusiya adı ilə Çin istehsalı olan dərmanlar gətirilir. Keyfiyyətsiz gətirilən dərmanlar müsadirə edilməlidir. Biz dəfələrlə Rusiya istehsalı dərmanlar almışıq, həmin şirkətin nümayəndəsinə göstərmişik, onlar isə bu seriyadan dərmanın olmadığını bildiriblər. Dərmanların tərkibi düzgün deyil. Əsasən də Çin istehsalı olan dərmanlara həddən artıq zəhər vurulur - gənəni öldürmək üçün. Gənə daha güclü zəhəri gördükdən sonra artıq az dozalı dərmanlar ona təsir etmir. Həm də o dərmanların zəhəri çox olduğuna görə həm balı, həm də arının üstündəki mumu çirkləndirir. Yəni bu dərmanların hesabına ölkəmizdə keyfiyyətsiz ballar istehsal olunur".

**Mütəxəssis qeyd edir ki, bu sahəyə mütləq ciddi nəzarət olunmalıdır:** "Bizim öz aramızda qohumlar var ki, dörd il dalbadal arı alır, amma o biri il qırılır. Arı peşəkarların əlində olmalıdır. Qeyri-peşəkarlar həm xəstəliyi yayır, həm də mənfəət əldə edə bilmirlər. Mənim yanımdan bəlkə də ondan çox arıçı ayrılıb, işi öyrəniblər, indi isə özləri arı saxlayırlar. Yəni yaxşı arıçı özü arı saxlayır. Bu, mal-qara deyil ki, alıb saxlayasan. Arıçılıqda çox bilgili olmaq lazımdır. Təkcə Varroa gənəsi 30-35-dən çox virus yayır.

dərmanlar bu gün də problem olaraq qalır. Əsas xəstəliyi isə Varroa gənələri yayır. Dərmanlar ölkəmizə nizamsız qaydada daxil olur. Onların keyfiyyətinə cavabdeh olan bir qurum olmalıdır. Yaxud da qaçaqmalçılıqla

Bu xəstəlikləri idarə etmək üçün daha çox bilik gərəkdir. Mən 40 ildən çoxdur ki, arıçılıqla məşğulam, amma hələ də bilmədiyim çox şey var. On il əvvəl arı saxlamaqla bu gün arı saxlamaq arasında çox fərq var. Qlobal istiləşmə arıçılığa yeni yanaşma tələb edir. Təcrübələrdən faydalanmaq lazımdır. Hazırda biz İsmayıllı zonasındayıq, bütün ana arıları izolyasiya edirik. Arıda toxum qoymanı dayandırmaq üçün bunu edirik. Bu xəstəliklər arının qoyduğu sürfələrlə yayılır.

Bütün ana arıları bir aylıq təcrid etmişik ki, toxum qoymasınlar. Bal süzümündən sonra dərmanlama aparacağıq. Çünki bal vaxtı dərmanlama aparsaq və içəridə sürfə olsa, onun nə xeyri olacaq, nə də bal keyfiyyətli olacaq. Əfsus ki, bəzi arıçılar buna yol verir. Məsələn, içəridə bal ola-ola dərmanlama aparılır.

Kəlbəcərdə də belə edəcəyik. Fikrimiz var ki, arıları daha soyuq yerdə qışladaq ki, sürfə qoyma dayansın. Çünki qlobal istiləşmənin təsirindədir - arılar qış yuxusuna getmir, yatmır. Qışda sürfə qoyur, bu zaman həm zəifləyir, həm də parazitlər çoxalır. Yəni tamam fərqli yanaşma lazımdır. Arıçılar təbii dərmanlardan istifadə etməlidirlər. Bu ildən istifadə etdiyimiz dərmanlar quzuqulağı və qarışqa turşusudur. Bu maddələr balı çirkləndirmir".

❑ **Afaq MİRAYİQ, "Yeni Müsavat"**

Yeni MÜSAVAT
N 99 (8709) 11 iyun 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

# Diplomla işsizlik: ali təhsil sistemi iflas edir?

## Kamran Əsədov: "150 ixtisas var, amma bazarın istədiyi yalnız 10-dur"

**"Əmək bazarında ən çox iş tapan məzunların siyahısı bir daha sübut edir ki, Azərbaycan universitetlərində yüzlərlə ixtisasın tədris olunmasına baxmayaraq, real sektor yalnız konkret və məhdud sayda sahəyə tələbat göstərir".**

Bu sözləri təhsil eksperti Kamran Əsədov deyib. Təhsil ekspertinin bu açıqlaması bir daha hazırkı ali təhsil sistemimizlə əmək bazarının ziddiyyətlərini açıq şəkildə ortaya qoyur.

Kamran Əsədovun açıqladığı statistikaya əsasən, ölkədə iş tapmaq şansı yüksək olan ixtisaslar siyahısında iqtisadi və idarəetmə yönümlü sahələr üstünlük təşkil edir.

Ən çox iş tapan məzunların siyahısı budur: İqtisadiyyat - 2,554 nəfər, maliyyə - 1,806 nəfər, mühasibat uçotu - 1,746 nəfər, menecment - 1,574 nəfər, sənayenin təşkili - 1,515 nəfər, biznesin idarə olunması - 1,331 nəfər, dünya iqtisadiyyatı - 1,315 nəfər, Azərbaycan dili və ədəbiyyatı müəllimliyi - 1,096 nəfər, bədən tərbiyəsi - 1,044 nəfər, hüquqşünaslıq - 868 nəfər.

Bu siyahı göstərir ki, tələb olunan kadrların əksəriyyəti ya iqtisadiyyata, ya da konkret sahə üzrə idarəetməyə istiqamətlənib. Amma bu rəqəmlər fonunda universitetlərdə 150-dən çox ixtisasın mövcudluğu ciddi suallar doğurur: bu qədər müxtəlif ixtisaslar kimə lazımdır? Onları bitirən gənclərin aqibəti necə olur?

Ekspertlər qeyd edir ki, hazırda əmək bazarı ilə təhsil arasında uçurum mövcuddur. Belə ki, universitetlərdə tədris olunan ixtisasların çoxu əmək bazarının real tələblərinə cavab vermir.

Bir çox ixtisaslar sadəcə formal olaraq saxlanılır, lakin onların məzunları ya iş tapmaqda çətinlik çəkir, ya da tamam fərqli sahədə fəaliyyət göstərməyə məcbur qalırlar.

Sürətlə dəyişən texnoloji tələblərin də öz təsiri var. İKT, süni intellekt, kibertəhlükəsizlik, data analitikası kimi sahələr qlobal miqyasda sürətlə inkişaf edir. Amma Azərbaycanda bu sahələr üzrə proqramlar ya çox azdır, ya da məzmun baxımından müasir tələblərə uyğun deyil.

Bundan başqa, peşəkar texniki kadr çatışmazlığı var.

Bəs nə etməli?

Ekspertlər qeyd edir ki, ilk növbədə əmək bazarı ilə inteqrasiya olunmuş proqramlara ehtiyac var. Hər ixtisasın əmək bazarındakı qarşılığı təhlil olunmalı və bu əsasda kvotalar müəyyənləşdirilməlidir. Dövlət və özəl sektor nümayəndələri ilə tədris proqramlarının ortaq şəkildə hazırlanması vacibdir.



Həmçinin peşə və texniki təhsili genişləndirilməlidir. Ali təhsildən fərqli olaraq, praktik bacarıqlar öyrədən qısamüddətli sertifikat proqramları və peşə kursları təşviq edilməlidir. Sənaye və istehsal müəssisələri ilə əməkdaşlıq çərçivəsində təcrübə proqramları təşkil olunmalıdır.

Rəqəmsal bacarıqların bütün sahələrə inteqrasiyası vacibdir. Hər ixtisasda rəqəmsal savadlılıq, informasiya texnologiyalarından istifadə və analitik düşüncə bacarıqları tədris olunmalıdır.

"Klassik" ixtisaslar belə rəqəmsallaşmağa məcburdur: məsələn, hüquq sahəsində hüquqi texnologiyalar, tərcüməçilikdə süni intellekt alətləri, kənd təsərrüfatında aqrotexnologiyalar.

Kamran Əsədov qeyd edir ki, hazırda universitetlər kütləvi şəkildə yeni ixtisas açsa da, heç biri bu ixtisaslar üzrə bazarın tələbinin olub-olmadığını yoxlamır. Bu isə ciddi dövlət nəzarəti və sistemli islahat tələb edir. Ali təhsil haqqında qanunda ixtisas siyahısı və qəbul planları hər il əmək bazarı ilə uyğunlaşdırılmalı, reallığı əks etdirməyən ixtisaslar ya bağlanmalı, ya da restrukturizasiya olunmalıdır: "Universitetlərin akkreditasiyasında yalnız akademik göstəricilər deyil, məzunların məşğulluq səviyyəsi əsas meyar olmalıdır.

Elm və Təhsil Nazirliyi və Dövlət Məşğulluq Agentliyi bu reytinqi təqdim etməklə çox vacib bir addım atıb. Amma bu, başlanğıcdır. Növbəti addım - nəticəsiz ixtisasların siyahısının hazırlanması, ali təhsil sistemində məzmun islahatlarının aparılması və universitetlərin real bazara yönəldilməsi olmalıdır. Əks halda, hər il minlərlə gənc universitetə daxil olur və dörd il sonra "işsizlər sırasına" çıxış diplomu ilə daxil olur. Bu isə artıq sadəcə təhsil problemi deyil, bu, sosial ədalətsizlikdir".

Beləliklə, bütün bunlar onu göstərir ki, təhsil sistemində köklü struktur islahatlarına, yeni təhsil proqramlarına ehtiyac var. Sadəcə, yeni fakültələr açmaq və ya diplomlar təqdim etməklə problem həll olunmur. Həll yalnız bazarla sinxron, adaptiv və çevik bir ali təhsil siyasəti ilə mümkündür.

Əks halda, hər yeni tədris ili həm universitetlər, həm valideynlər, həm də gənclər üçün yeni illüziyaların başlanğıcı ola bilər.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Xalidə GƏRAY

# Deputat 200 balla universitetə qəbula qarşı

## Ceyhun Məmmədov: "300 baldan aşağı nəticə göstərən abituriyentin universitetə qəbul olunması doğru deyil"

**Bəzi universitetlərdə dövlət sifarişli müəyyən ixtisaslar üzrə qəbul balları 200 civarındadır. Bildirilir ki, İdman Akademiyasında, İlahiyyat İnstitutunda, Sumqayıt Dövlət Universitetində, həmçinin Qərbi Kaspi və Odlar Yurdu, Biznes universitetlərində də bəzi ixtisasların keçid balları 200 civarındadır.**

Dövlət İmtahan Mərkəzinin sədri Məleykə Abbaszadə bildirib ki, ali təhsil müəssisələrinə 1309 plan yeri artırılıb. Onun sözlərinə görə, qərar daha çox tələbənin universitet təhsili almağa şans əldə etməsinə imkan yaradacaq. Ekspertlərə görə, ən azı 5 min abituriyent öz arzularına çata biləcək. Bu isə o deməkdir ki, ballar ötən ilə nisbətən müəyyən qədər aşağı düşəcək. Bu, bütün ixtisasları əhatə etməyəcək, amma ümumilikdə 5 min nəfərin universiteti qazanması ümidverici haldır.



**Millət vəkili Ceyhun Məmmədov** "Yeni Müsavat"a deyib ki, qəbul ballarının aşağı salınması düzgün yanaşma hesab etmir: "Ümumilikdə, mən 200 balla tələbənin universitetə qəbul olunmasını doğru hesab etmirəm. Çünki belə tələbələr təhsil və tədris prosesində özlərini doğrultmurlar. Bu tendensiyaya artıq son qoymalıyıq. Bəzən cəmiyyət daxilində belə fikirlər səsləndirilir ki, guya qəbul prosesi asanlaşdırılmalıdır. Lakin qəbulu asanlaşdırmaq əslində qapını hər kəsin üzünə açmaq deməkdir. Hər bir tələbənin təhsil haqqı və dövlətin onun üzərində xərclədiyi vəsait var. Buna görə də hesab edirəm ki, balların aşağı salınması təcrübəsindən imtina edilməli, əksinə, keçid balları artırılmalıdır. 200 bal kollecərə qəbul üçün uyğun ola bilər, lakin universitet üçün bu göstərici olduqca aşağıdır. Bunun mənfi təsirlərini və nəticələrini tədris prosesində də müşahidə edirik. Növbəti mərhələdə bu həddi mərhələli şəkildə artırmalı və minimum 250-300 bala çatdırmalıyıq. Ümumiyyətlə, 300 baldan aşağı nəticə göstərən abituriyentin universitetə qəbul olunması doğru deyil.

Hazırkı vəziyyətdə bir çox tələbə düşünür ki, 200 bal toplamaq o qədər də çətin deyil. Bu səbəbdən də ciddi şəkildə hazırlaşmağa ehtiyac duymur və nəticədə ali təhsil müəssisəsinə nisbətən asan yolla qəbul olunur. Biz bu təcrübəni nəzərə alaraq daha diqqətli və məsuliyyətli yanaşma sərgiləməliyik".

**Təhsil eksperti Kamran Əsədov bəzi ixtisaslar üzrə ali məktəblərə qəbul ballarının 200 civarında qalmasının cəmiyyətdə yanlış anlaşıldığını deyir:** "Elə təqdim olunur ki, guya həmin ixtisaslar əmək bazarında əhəmiyyətsiz, sosial nüfuzu zəif və ya perspektivsiz sahələrdir. Halbuki ali təhsilin məqsədi təkcə yüksək bal toplamış abituriyentləri seçmək deyil, ölkənin gələcək sosial-iqtisadi inkişaf ehtiyaclarına cavab verəcək kadr potensialını formalaşdırmaqdır. Keçid balları yalnız tələbə seçimində tətbiq olunan texniki meyardır, ixtisasın strateji dəyərini və ya gələcək əmək bazarındakı əhəmiyyətini müəyyənləşdirmir".

**Kamran Əsədov qeyd edir ki, keçid ballarının aşağı olması bir neçə amillə bağlıdır:** "Birincisi, abituriyentlərin bu sahələrə marağının az olması; ikincisi, cəmiyyətin ixtisaslar arasında verdiyi prestij fərqliliyi; üçüncüsü isə əmək bazarının bu sahələrə qarşı sərt və ya zəif tələbi. Məsələn, fizika müəllimliyi və ya kənd təsərrüfatı ixtisasları üzrə əməkhaqqı aşağı olduğundan, bu sahələr abituriyent üçün cəlbedici olmur. Lakin bu, ixtisasın dəyərini müəyyən etmir. Əksinə, bu aşağı maraq və tələb gələcəkdə həmin sahələrdə peşəkar çatışmazlığına səbəb ola bilər. Plan yerlərinin artırılması ilə paralel olaraq balların müəyyən sahələr üzrə aşağı düşəcəyi gözlənilir, bu isə bir tərəfdən ali təhsilin demokratikləşməsi (çoxlarının daxil ola bilməsi), digər tərəfdən isə keyfiyyət riskləri yarada bilər. Qəbul planı genişləndikcə, zəif hazırlıqlı abituriyentlərin də universitetlərə qəbul olması ehtimalı artır. Bu isə təhsil prosesində əlavə dəstək mexanizmlərinin - akademik yazı bacağı, riyazi savadlılıq, universitetə adaptasiya proqramlarının tətbiqini zəruri edir".

**Ekspert dedi ki, ali təhsildə qəbul planının genişlənməsi qısa müddətdə sosial-iqtisadi baxımdan pozitiv görünə bilər:** "Amma bu artım keyfiyyət, dayanıqlı maliyyələşmə və əmək bazarı uyğunluğu baxımından sistemli yanaşma tələb edir. Keçid ballarının aşağı olması ixtisasın əhəmiyyətsizliyindən yox, cəmiyyətin maraq meyarlarının qeyri-bərabərliyindən irəli gəlir. Ona görə də təhsil siyasəti bu ixtisaslara olan tələbi artırmaq üçün tələbə təqaüdləri, məzun məşğulluq zəmanətləri və peşə nüfuzu proqramları kimi təşviqlər tətbiq etməlidir. Əgər bu sahələrdə strateji planlaşdırma aparılarsa, həm keyfiyyətli insan kapitalı formalaşar, həm də ali təhsilin əmək bazarına real töhfəsi artar. Əks halda, aşağı balla daxil olan minlərlə tələbə son nəticədə nə ali təhsil diplomunun real dəyərini hiss edəcək, nə də əmək bazarında möhkəmlənə biləcək. Təhsil strategiyasının mərkəzində isə rəqəmlər deyil, insan olmalıdır.

Digər tərəfdən, keçid balı aşağı olan sahələrə dövlət sifarişi ilə qəbul imkanı yaradılması mühüm müsbət addımdır. Bu, az maraq göstərilən, amma ölkə üçün strateji əhəmiyyət kəsb edən sahələrə mütəxəssis cəlb etməyə xidmət edir. Məsələn, kənd təsərrüfatı mühəndisliyi, elektroenergetika, texniki müəllimlik, bədən tərbiyəsi və idman, ilahiyyat və məktəbəqədər təhsil ixtisasları əmək bazarında gələcəkdə kəskin kadr çatışmazlığı ilə üzləşə biləcək sahələrdir. Əgər bu istiqamətlərdə plan yerləri aylılmasa və aşağı bal toplayan abituriyentlərə belə imkan verilməsə, həmin sahələrdə, ümumiyyətlə, peşəkar olmayacaq".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 99 (8709) 11 iyun 2025

# Falçı qapısı - kasıblar getmir, varlıları isə aldadırlar

## Ekspert: “Falçının insanın həyatını dəyişəcəyinə inanmaq insanın özünə dediyi ən böyük yalandır”

**Bakıda baxıcı kimi fəaliyyət göstərən 53 yaşlı Nərgiz Soltanovanın cinayət işi ölkədə geniş yayılmış və illərdir müzakirə olunan bir fenomeni yenidən gündəmə gətirib: “falçılıq” və bu ad altında baş verən dələduzluqlar. Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Nərgiz Soltanova külli miqdarda dələduzluqda təqsirli bilinərək 5 il müddətinə azadlıqdan məhrum edilib. O, iki qadını - onlardan biri Ukrayna vətəndaşı olmaqla - "cadunu pozmaq", “müharibədən qorunmaq üçün ritual keçirmək” kimi vədlərlə ümumilikdə 74 min manat aldatmaqda günahlandırılıb.**

Məlumata görə, Soltanova əvvəlcə taksi sürücüsü vasitəsilə tanış olduğu Nigar adlı qadına “kəfən dönməsi” adlı ritual təklif edib. Qadına öləcəyi barədə cadu edildiyini deyərək qorxudub və həmin “cadunu pozmaq” üçün ondan 21 min manat pul alıb. Digər hadisədə isə Ukrayna vətəndaşı Viktoriya adlı qadına və ailəsinə “müharibə təhlükəsindən qoruyacaq” ritual adı ilə 53 min manat qarşılığında “xidmət” göstərib.

Nərgiz Soltanova özünü təqsirli bilməsə də, məhkəmənin qərarı ilə barəsində seçilmiş polis nəzarətinə verilmə qətimkan tədbiri dəyişdirilərək həbs-qətimkan tədbiri ilə əvəz olunub.

Bu fakt, ölkədə falçılıq və baxıcılıq adı altında baş verən dolandırıcılıqların tək-tük hadisə olmadığını bir daha təsdiqləyir. Qeyri-rəsmi fəaliyyət göstərən bu şəxslər, xüsusən də sosial şəbəkələr və ağızdan-ağıza yayılan “şöhrətləri” sayəsində insanların inamını qazanır və bu inamı sui-istifadə üçün alətə çevirirlər.

### Kimlər baxıcılara gedir və niyə?

Azərbaycan reallığında bu cür şəxslərin “müştəri” bazası düşündüyümüzdən daha maraqlıdır. Adətən elə düşünülür ki, falçılara, baxıcılara kasıb təbəqə, savadsız insanlar üz tutur. Amma praktika göstərir ki, əksinə, onların əsas hədəfi varlı və ya müəyyən maddi imkanı olan insanlardır. Çünki maddi sıxıntı içində olan vətəndaşın “cadu pozdurmaq”, “dua yazdırmaq”, “ailəsini qorumaq üçün ritual etdirmək” üçün külli miqdarda vəsait xərcləməyə nə imkanı, nə də ehtiyacı var.



Psixoloqlar deyir ki, insanların falçılara üz tutmasının əsas səbəblərindən biri qorxu və çıxışsızlıq hissidir. Zahirən imkanlı görünən insanlar da zaman-zaman şəxsi həyatlarında yaşadıqları gərginliklərə görə rasional düşüncədən uzaqlaşa bilir, “son ümid yeri” kimi baxıcılara müraciət edirlər. Və təəssüf ki, bu anda qarşılarına çıxan “peşəkar dələduzlar” onların bu zəif anından istifadə edirlər.

Qanunvericiliyə görə, baxıcılıq və falçılıq kimi fəaliyyətlər birbaşa qadağan olunmasa da, bu fəaliyyət adı altında törədilən dələduzluqlar Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cəzalandırılır. Problem ondadır ki, bu kimi hallar çox zaman sübuta yetirilə bilmir. İnsanlar ya utandıqlarından, ya da hüquqi nəticələrdən qorxaraq şikayətçi olmaqdan çəkinirlər. Bundan başqa, Azərbaycanda bu sahədə konkret lisenziyalaşdırma və ya tənzimləmə mexanizmi yoxdur. Nəticədə “falçı”, “duaçı”, “enerji müalicəçisi” adı ilə fəaliyyət göstərənlərin böyük əksəriyyəti nəzarətsiz fəaliyyət göstərir.

**Mövzu ilə bağlı “Yeni Müsavat”a danışan sosioloq Üzeyir Şəfiyev bildirib ki, falçı yanına getmək bütün dövrlərdə mövcud olub:** “Qədim dövrlərdən bu günümüzədək falçılıq olub. Falçılar xurafatdan, cəhalətdən, yalançı inanclardan istifadə edərək insanları bu cür aldadırlar. Burada əsas məqsəd isə mənfəət əldə etməkdir. Maraqlı məqam isə ondan ibarətdir ki, belə falçıların insanlara təsir gücü çox olur. Onlar yanlarına gələn insanların həyəcanını, gerginliyini sezir, bədən dilinə baxır və onun əsasında proqnozlar verir. Göründüyü kimi, əslində insanın özü bütün məlumatları falçılara ötürür, lakin bunu şüurlu şəkildə etmir deyə fərqində olmur. Falçının dediyi təsadüfən düz çıxanda isə insanların ona inamı möhkəmlənir.

Bəzən insan çətin duruma düşür, çıxış yolu tapa bilmir, hətta saman çöpündən də yapışmağa hazır olur ki, o vəziyyətdən çıxsın. Belə olan halda onların vəziyyətindən falçılar deyilən dələduz zümrə məharətlə istifadə edir və çox böyük məbləğdə mənfəət əldə edir. Təəssüflər olsun ki, falçılara imkanlı və tanınmış şəxslər də müraciət edirlər. Onlar çətin durumda rasionallığı itirir, labrint vəziyyətdən yeganə çıxış yolunu mistikada görürlər. Halbuki bu qeyri-düzgün yoldur. Əfsus ki, Azərbaycanda falçılıqla mübarizə kampaniya xarakterlidir. Halbuki falçılıq dələduzluğun bir növüdür, inzibati xətalar və cinayət məcəllələri ilə cəzalandırılmalıdır. Bu, ardıcıl şəkildə edilməlidir. Bu istiqamətdə maariflendirmə işləri də aparılmalıdır ki, insanlar xurafatdan ayılsınlar, tələyə düşməsinlər. İnsanlar bir şeyi bilməlidirlər ki, əgər falçılar gələcəyi görmək və həyatı, çətinliyi dəyişmək qüdrətinə sahib olsaydılar, elə özlərinə və yaxınlarına kömək edərdilər, güzəranlarını yaxşılaşdırardılar da. Deməli, bu fırıldaqçılıqdır. Həm din, həm də elm falçılığı rədd edir”.

**Psixoloq Günel İsmayıllı bildirir ki, falçıya inanmaq nəsildən-nəsilə ötürülən inanclar sisteminə bağlıdır:** “Biz uşaqlıqdan nəyi görüb eşidiriksə, bunlar bizim beynimizdə şüuraltı səviyyəsində kodlanır. Həmin kodlanan fikir və düşüncələr avtomatik olaraq bizi yetkinlik çağımızda da idarə edə bilir. Falçıya gedənlər arasında təhsilli və varlı insanlar da var. Mən hər zaman deyirəm, ali məktəbdə təhsil almaq, çoxlu pula sahib olmaq hələ o demək deyil ki, şəxs ağıllı insandır. Bu, sadəcə, təhsilyönümlü bacarıqlara sahib olmaq deməkdir. Həmçinin bir insanın varlı olması da onun əlahiddə qabiliyyəti ilə bağlı olan bir şey deyil. Zənginlik nəsildən nəsilə də keçə bilər. Pula sahib olmaq hələ düşüncənin zənginliyi demək deyil. Düşüncədə zəngin olmaq üçün ilk növbədə biz öz reallığımızı, özümüzü tanımalıyıq. Əgər özümüzü tanımırıqsa, əzbərlənmiş bir həyat yaşayırıq. Yaşam isə bu deyil. Özümüzdən əvvəlki nəslin etdikləri qızıl qayda deyil, onların etdikləri səhvləri etmək məcburiyyətində deyilik.

Falçının insanın həyatını dəyişəcəyinə inanmaq insanın özünə dediyi ən böyük yalandır. İnsan arzusuna, istəklərinə çatmaq üçün bəzən özünə o qədər yalan danışır ki, bir müddət sonra isə görür ki, çöküb. Falçıya gedən insan təhsilli, savadlı şəxs ola bilər. Bu, formalaşmayan, inkişaf etməyən, düşüncənin zəifliyi ilə əlaqəlidir. Bir də insanın mənliyinin formalaşmaması var. Belə şəxslər əzbərlənmiş, nəsildən-nəsilə ötürülən kodlarla yaşayırlar. Bu o zamana kimi davam edir ki, şəxs öz səhvini görmür, onu sorğulayıb nəticə çıxarmır”.

❑ **Şahanə RƏHİMLİ, “Yeni Müsavat”**

# Ölkəmizdə ən çox siqaret çəkən bölgə bilindi - səbəb

## Sosioloq: “Çox vaxt insanlar siqaretin yaratdığı maddi və mənəvi zərərləri düzgün qiymətləndirmirlər”



**Azərbaycanda tütün məmulatlarına (siqaretə) ən çox Dağlıq Şirvan iqtisadi rayonunda - Ağsu, İsmayıllı, Qobustan və Şamaxı rayonlarında yaşayan şəxslər tərəfindən pul xərclənir.**

Rəsmi məlumata görə, Dağlıq Şirvan iqtisadi rayonunda bir nəfərin ay ərzində siqaret üçün sərf etdiyi vəsait orta hesabla 15,5 manata bərabərdir.

Bu məbləğ adambaşına düşən orta aylıq istehlak xərclərinin 4,3%-ni təşkil edir. Bu, həmçinin sözügedən rayonlarda təhsilə çəkilən xərclərdən təxminən 3 dəfə çoxdur. Belə ki, Dağlıq Şirvan iqtisadi rayonunda yaşayan insanların adambaşına düşən aylıq təhsil xərci 5,3 manatdır ki, bu da ümumi istehlak xərclərinin 1,5%-nə bərabərdir.

Qeyd edək ki, Azərbaycanda Abşeron-Xızı iqtisadi rayonu istisna olmaqla, digər iqtisadi rayonlarda tütün məmulatlarına sərf olunan vəsait təhsilə sərf olunan vəsaitdən çox olub. Oraların deputatlarından biri ilə danışmaq. Hesabla bu rayonlar təsərrüfatla məşğul olurlar. Siqaret çəkməyə çox vaxt olmamalıdır və s.

**Araşdırmaçı, sosioloq Məhbubə Mehdiyeva** “Yeni Müsavat”a şərhində təsdiq etdi ki, Şirvan iqtisadi rayonunda - Ağsu, İsmayıllı, Qobustan və Şamaxı kimi ərazilərdə siqaret istifadəsinə maraq böyükdür. O qeyd etdi ki, rəsmi rəqəmlər bu bölgədəki insanların siqaretə çox pul xərclədiyini göstərir: “Bəzi yerlərdə isə bir çox adam gündə üç qutu siqaret çəkir. Bu həm sağlamlıq, həm də maliyyə baxımından çox ciddi problemlər yaradır. Bu ərazilərdə siqaret yalnız bir vərdiş deyil, həm də sosial və psixoloji funksiyalara malikdir. İnsanlar siqareti bir çox hallarda rahatlıq, sakitlik, və ya sosial mühit yaratmaq üçün çəkirlər. Bu, kənd həyatında siqaret bəzən kişinin gücünü və "yetkinliyini" simvolizə edir. İnsanlar əsasən fiziki əmək və kənd təsərrüfatı ilə məşğuldurlar. Bu isə həm fiziki, həm də emosional yorğunluğa səbəb olur. Siqaret, adətən, bu yorğunluğun və stressin aradan qaldırılması üçün bir vasitə kimi istifadə edilir. Təəssüf ki, bu bölgələrdə insanların asudə vaxtını yaxşı şəkildə keçirmələri üçün lazımi imkanlar azdır. Kitabxana, idman zalı və ya psixoloji dəstək kimi fəaliyyətlər çox məhduddur. Bu da insanların boş vaxtlarını siqaretlə doldurmasına səbəb olur. Maarifləmə də hələ ki çox zəifdir. Çox vaxt insanlar siqaretin yaratdığı maddi və mənəvi zərərləri düzgün qiymətləndirmirlər. Bir çox ailənin büdcəsi üçün çox əhəmiyyətli olan bu xərc, uzunmüddətli yoxsulluq və iqtisadi sıxıntılarla nəticələnə bilər. Psixoloji amillər də nəzərə alınmalıdır. Uşaqlıqda yaşanan travmalar, ailədaxili problemlər və ümumi həyatla bağlı məyusluqlar siqaretə olan marağı artırır. Siqaret burada sadəcə nikotin deyil, həm də bir növ “emosional dəstək” funksiyasını yerinə yetirir".

**Psixiatr-narkoloq, psixiatrik və narkoloji klinikanın rəhbəri Ruslan İsayev** bu günlərdə bildirib ki, siqareti tərgitmək üçün ən effektiv üsul psixoterapiya və medikamentoz (dərmanla) dəstəyin birgə tətbiqidir. Ekspertin sözlərinə görə, siqaretdən imtina edən şəxs təkcə nikotinə olan fiziki asılılıqla deyil, eyni zamanda gündəlik həyatına inteqrasiya olunmuş emosional və davranış modelləri ilə də üzləşir: “Buna görə də təkcə, nikotin əvəzedici vasitələrlə-məsələn, saqqız və ya elektron siqaretlə mübarizə aparmaq adətən uzunmüddətli nəticə vermir.

Siqareti atmaq birdəfəlik qərar deyil, bu bir prosesdir. Ən düzgün yol həkimə müraciət etməkdir, çünki yalnız mütəxəssis uyğun dərman müalicəsini təyin edə və psixoloji dəstək göstərə bilər. Nikotin əvəzedici terapiyaya plastırlar, saqqızlar, inhalyatorlar və xüsusi tabletlər daxildir. Bu vasitələr nikotindən imtina zamanı ortaya çıxan “lomka” simptomlarını (yəni çəkilmə sindromunu) azaltmağa kömək edir. Lakin bu vasitələrin dozası və istifadəsi fərdi olmalıdır. Özbaşına istifadə halları ya dozanın artıq olması, ya da effektin olmaması ilə nəticələnə bilər”.

**R.İsayev qeyd edib ki, eyni zamanda həkim tərəfindən yüngül antidepresantlar və ya sakitləşdirici dərmanlar da təyin oluna bilər, bu da keçid dövrünü daha asan keçməyə yardım edir:** “Lakin hətta ən düzgün seçilmiş dərmanlar belə psixoloji asılılıqla iş aparılmadıqda kifayət etmir. Bu səbəbdən psixoterapiya ya yanaşı tətbiq edilməlidir. Qeyd edək ki, son araşdırmalar elektron siqaretlərin düşündüyümüzdən daha təhlükəli olduğunu göstərib. 250 min nəfərin iştirak etdiyi genişmiqyaslı tədqiqat veyplərlə xroniki obstruktiv ağciyər xəstəliyi (XOAX) arasında birbaşa əlaqə olduğunu ortaya çıxarıb”.

❑ **Nigar HƏSƏNLİ, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 99 (8709) 11 iyun 2025

# Qaz ixracında iki ciddi problem

## Biri investisiya qoymadan qaz istəyir, o biri ciddi sanksiyalar altında olmasına baxmayaraq tranzit üçün yol...



**İyunun əvvəlində keçirilən ənənəvi Bakı Enerji Həftəsi çərçivəsində Azərbaycanın paytaxtında Rusiyanın "Qazprom" konserninin nümayəndələrinin iştirakı ilə danışıqlar baş tutub. Bu barədə Haqqın.az mənbələrinə istinadən xəbər verib. Bildirilir ki, gündəliyin əsas məsələlərindən biri Azərbaycanın Rusiya təbii qazının İrana tranzitinin təşkilində mümkün iştirakı olub.**

Xatırladaq ki, 2024-cü il iyunun 26-da Tehranda "Qazprom" və İranın enerji şirkəti NİGC arasında Rusiya təbii qazının İrana çatdırılması üçün boru kəməri marşrutlarının inkişafına dair strateji memorandum imzalanıb. Hər iki tərəf üçün Azərbaycanın tranzit logistikasında rolu əsas hesab edilib.

Bu ilin yanvarında İran Prezidentinin Moskvaya səfəri zamanı Rusiya Prezidenti Vladimir Putin artıq qaz kəmərinin tikintisi üzrə razılığın əldə olunduğuna dair açıqlama ilə çıxış edib. İlkin mərhələdə mövcud infrastrukturla 2 milyard kubmetr Rusiya qazının İrana çatdırılması, daha sonra isə 55 milyard kubmetr ötürücülük gücü olan kəmərin çəkilməsi planlaşdırılır. Lakin rəsmi Bakı "Qazprom" və İran Milli Qaz Şirkətinin (NIGC) birgə təklifinə hələ ki, dəqiq cavab verməyib.

**"Qazprom"dakı mənbə Haqqın.az-a deyib ki, Bakıdan cavab gözləyirlər:** "Hazırda biz yanvar ayında səsləndirilən təklifi indiyədək ictimaiyyətə şərh etməkdən çəkinən Azərbaycan tərəfinin reaksiyasını diqqətlə izləyirik. Nəzərə almaq lazımdır ki, söhbət çoxtərəfli layihədən gedir və Azərbaycan bu təşəbbüsün onun milli maraqlarına nə dərəcədə cavab verdiyini qiymətləndirir".

Bu plan tranzit ölkə kimi Azərbaycana çoxsaylı üstünlüklər qazandırır. Bununla belə, əsas məhdudiyyətlər siyasi şəraitlə bağlı olaraq qalır. Məlum olduğu kimi, Rusiya və İran beynəlxalq sanksiyalar altında qalmaqdadır və bu, rəsmi Bakını Moskva və Tehranın iştirak etdiyi enerji təşəbbüslərinə yaxınlaşarkən ehtiyatlı davranmağa vadar edir. Rusiya və İran qlobal qaz bazarında strateji oyunçular olaraq qalsalar da, xarici siyasət məhdudiyyətləri onların iştirakı ilə irimiqyaslı layihələrin inkişafına maneçilik törətməkdə davam edir. Əsas çətinliklərə beynəlxalq sanksiyaların təsiri, hələ də açıq qalan kommersiya məsələləri və genişmiqyaslı infrastruktur yatırımlarına ehtiyac daxildir. Bu amilləri nəzərə alaraq, uzunmüddətli məqsədlərə - məsələn, illik 55 milyard kubmetr qazın tranziti kimi iddialı planlara - nail olunması riskli görünür.

Bakı Enerji Həftəsi günlərində Bakıda mühüm bir saziş imzalanıb. Bu, SOCAR-la Almaniyanın SEFE (Securing Energy for Europe) dövlət enerji şirkəti arasında təbii qaz alışı üzrə imzalanmış 10 illik müqavilədir. Sənədə əsasən, qaz həcmləri SOCAR tərəfindən Avropada SEFE-yə təchiz ediləcək. İllik tədarük həcmi mərhələli şəkildə artırılaraq, 15 TWh-a (terevatt-saat), yəni təxminən 1,5 milyard kubmetrə çatdırılacaq. Bildirilir ki, bu əməkdaşlıq hasilat və infrastruktur, o cümlədən qaz kompressorları sahəsində investisiyaları dəstəkləməklə, Avropaya daha çox boru xətti qazının çatdırılmasını təmin edəcək və qitənin enerji təhlükəsizliyinə töhfə verəcək.

**SEFE-nin baş icraçı direktoru Egbert Laege bildirib ki, "bu uzunmüddətli müqavilə Almaniya ilə Azərbaycan arasında mövcud olan güclü münasibətlərin bariz nümunəsidir":** "Bu tərəfdaşlıq sayəsində Avropaya əhəmiyyətli həcmdə təbii qaz çatdırmaq üçün yeni bir marşrut formalaşdırılır, bu isə bizim portfelimizi şaxələndirməyə və müştərilərimizin enerji təchizatının təhlükəsizliyini artırmağa xidmət edir".

**SOCAR-ın prezidenti Rövşən Nəcəfə görə, bu razılaşma SOCAR-ın Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsi istiqamətindəki fəaliyyətində növbəti önəmli mərhələdir:** "SEFE-yə etibarlı və iri həcmdə təbii qaz təchiz etməklə biz Azərbaycanla Almaniya arasında mövcud tərəfdaşlığı daha da möhkəmləndiririk, Avropanın enerji şaxələndirməsi və dayanıqlı inkişaf hədəflərinə töhfə veririk. SOCAR bundan sonra da infrastruktur və hasilat üzrə layihələrə sərmayə qoyaraq tərəfdaşlarımız üçün təhlükəsiz və fasiləsiz enerji təchizatının təmin olunmasını davam etdirəcək".

Qeyd edək ki, Avropa enerji bazarında 30 illik təcrübəyə malik SEFE Avropada qaz, elektrik və təmiz enerji məhsullarının aparıcı təchizatçısıdır və Almaniya, Böyük Britaniya, Fransa, Hollandiya, Belçika, Avstriya və Çexiyada fəaliyyət göstərir. "Caspian Barrel"in əldə etdiyi məlumata görə, SEFE-nin keçmiş adı "Gazprom Germania GmbH" olub, hansı ki, 1990-cı ildən 2022-ci ilə qədər dünyanın ən böyük qaz şirkəti "Qazprom"un tam mülkiyyətində olan törəmə şirkəti idi. 2022-ci ildə Rusiyanın Ukraynaya hərbi təcavüzündən sonra şirkət Almaniyanın federal enerji tənzimləyicisi olan Federal Şəbəkə Agentliyinin himayəsi altına alınıb və o vaxtdan Almaniya Federal Hökumətinə məxsusdur.

SEFE illik 200 TVt/saat qaz və elektrik enerjisi satış həcmi ilə Avropada sənaye müştərilərinin ən mühüm təchizatçılarından birinə çevrilib. Onun 50 min müştərisi kiçik bizneslərdən tutmuş bələdiyyələrə və iri istehsalçılara qədər çoxşaxəlidir.

**Enerji məsələləri üzrə ekspert İlham Şaban hesab edir ki, bu müqavilənin imzalanması çox yaxşı haldır:** "Çünki "Şahdəniz-2" layihəsi müqavilələrindən sonra bizim faktiki olaraq Avropa ölkələri və şirkətləri ilə uzunmüddətli qaz müqaviləmiz yox idi. Almaniyanın federal hökumətinin tam nəzarətində olan SEFE şirkəti ilə kommersiya müqaviləsinin imzalanması bu baxımdan Avropanın lider ölkəsinin Azərbaycaının bir stabil enerji təhcizatçısı kimi dəyərləndirilməsi, həm də SOCAR-a inamın ifadəsidir".

**Müqavilədə nəzərdə tutulan qaz Almaniya şirkətinə necə çatdırılacaq? İ.Şaban deyir ki, qazın mütləq Almaniyaya çatdırılması nəzərdə tutulmur:** "Hər iki şirkətin açıqlamasında Azərbaycan qazının boru kəməri ilə alınması göstərilib. Amma bu o demək deyil ki, Azərbaycan qazı boru xətti ilə Almaniyaya çatdırılacaq. Çünki SEFE-nin Avropanın bir çox ölkələrində enerji aktivləri var və qazı alıb yerindəcə elektrikə çevirə bilər və öz istehlakçılarının enerji təhcizatını həyata keçirər. Belə sxemlə Almaniyanın Uniper şirkəti də "Şahdəniz-2" çərçivəsində Azərbaycandan qaz alır".

Ukraynanın Avropaya qaz ixracı xətlərini bağlaması və müharibəyə görə Rusiyaya tətbiq olunan sanksiyaların dərinləşməsi "köhnə dünyanın" "mavi yanacaq"la təminatında da ciddi problemlərə səbəb olub. Elə bu fonda Avropa digər mənbələrdən, o cümlədən Azərbaycandan daha çox qaz almağa can atır. Lakin bunun üçün indi Avropanın özünün də müəyyən addımlar atmasına ciddi ehtiyac var.

Yəni "mavi yanacağın" ixracının genişləndirilməsi ilə bağlı müəyyən problemlər var. Azərbaycanın təbii qaz hasilatı və tədarük infrastrukturu genişmiqyaslı investisiyalar tələb edir. Cənub Qaz Dəhlizinin ötürmə qabiliyyətinin artırılması və modernləşdirilməsi gələcəkdə daha böyük həcmli qaz tədarükünü təmin etmək üçün vacibdir. Bunun üçün isə Avropanın müvafiq addımlar atması mühümdür. Azərbaycan qazının Avropaya tədarükünün daha da artırılması çox regionun ehtiyaclarından və Avropa tərəfinin yeni infrastruktura sərmayə yatırmaq istəyindən asılı olacaq.

Azərbaycan öz üzərinə düşən işləri vaxtında yerinə yetirir. Elə Bakı Enerji Həftəsi çərçivəsində "Şahdəniz" qaz-kondensat yatağının işlənməsinin yeni mərhələsi ilə bağlı saziş imzalanıb. Layihə tərəfdaşları (bp (operator - 29,99 faiz), LUKOYL (19,99 faiz), TPAO (19,00 faiz), Cənub Qaz Dəhlizi (16,02 faiz), NİKO (10,00 faiz) və MVM (5,00 faiz)) Şahdəniz Kompressiya (ŞDK) layihəsi üçün yekun investisiya qərarını elan ediblər.

2,9 milyard dollar dəyərində olan ŞDK layihəsi yatağın işlənməsinin əvvəlki iki mərhələsinin davamıdır. Bu layihədə məqsəd yataqdakı aşağı təzyiqli qaz ehtiyatlarını əlçatan etməklə onların hasilatını təmin etmək və beləliklə yataqdan maksimum qazvermə əmsalına nail olmaqdır. Layihənin yataqdan təxminən 50 milyard kubmetr əlavə qaz və 25 milyon barelə yaxın əlavə kondensat hasilatına və ixracına imkan yaradacağı gözlənilir.

Bundan əlavə, Türkiyənin TPAO şirkəti "Şəfəq-Asiman" qaz-kondensat yatağında 30 faizlik iştirak payını alıb. Bu isə yatağın işlənməsinin sürətləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Qeyd olunanlar göstərir ki, dünyada gedən geosiyasi proseslər Azərbaycanın enerji bazarında rolunu getdikcə artırır. Xüsusilə Rusiyanın Ukraynada başlatdığı işğalçı müharibə fonunda Avropa İttifaqının Moskva ilə bütün bağları qırması Azərbaycanın həm Avropanın enerji bazarında mövqeyini möhkəmləndirir, həm də güclü şimal qonşu üçün əhəmiyyətini daha da artırır. Avropa İttifaqının 2027-ci ilədək Rusiya qazının idxalını tam dayandırmaq planları Moskvanın yeni bazarlar tapmaq istiqamətində hərəkətliliyini gücləndirir. Bu baxımdan, nəhəng qaz ehtiyatları olmasına baxmayaraq, onun hasilatını təmin edə bilməyən İrana qaz ixracı Rusiya üçün yeni bir istiqamətdir. İrana çatdırılacaq qaz həcmlərinin oradan digər ölkələrə, o cümlədən İraqa satılması imkanı da mövcuddur. Bu vəziyyətdə nəzərlərin Azərbaycana yönəlməsi Bakı üçün seçim məcburiyyəti də yaradır. Ekspertlərə görə, ABŞ-İran danışıqları nəticəsiz bitərsə, Vaşinqton cənub qonşumuzla hər hansı irimiqyaslı enerji layihələrinin icrasına imkan verməyəcək. Buna görə də Bakının Moskva və Tehrandan gələn təklifə hələ münasibət bildirməməsi uzaqgörən addım kimi dəyərləndirilir.

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
Son səhifə
N 99 (8709) 11 iyun 2025
iyun

# Sahibindən qaçan zebra internet ulduzuna çevrildi



ABŞ-ın Tennessi ştatında bir həftədən çox müddət azadlıqda gəzən və sosial şəbəkələrin ulduzuna çevrilən zebra Ed yaxalanaraq sahiblərinə qaytarılıb. Bu barədə Ruzerford dairəsinin şerif idarəsindən xəbər verilib.

Bildirilir ki, Ed Tennessinin mərkəzində bir otlaqda aşkarlanıb. Hadisəyə cəlb edilən hava qüvvələri onun tutulmasına yardım edib. Sosial şəbəkələrdə onun helikopterlə daşınmasının görüntüləri yayılıb.



## Tokioda ata oğluna niyə 700 min dollar xərclədi?

Tokioda daşınmaz əmlak şirkətinin müdiri oğlunun fotoşəkillərinin olduğu reklamları tanıtmaq üçün 100 milyon yen (700 min ABŞ dolları) xərclədikdən sonra məşhurlaşıb. Ata oğlu Yu-kunun fotolarını piyada keçidlərində, ticarət mərkəzlərində və avtobuslarda yerləşdirib. Yu-kun model deyil, amma atası oğlunun çox cazibədar olduğunu düşündüyünə görə hesab edir ki, bütün şəhər onu görməlidir: "Oğlum kiçik olanda çox yaraşıqlı idi. Düşünürdüm ki, bütün Tokio onu tanımalıdır".

## Suriyalı dağılmış evin qalıqları altından 1 500 yaşlı abidə tapdı

Suriyalı podratçı dağılmış evin qalıqlarını təmizləyərkən gözlənilmədən tarixi kəşf edib. O, Bizans dövrünə aid, 1 500 ildən artıq yaşı olan yeraltı dəfn kompleksinin qalıqlarına rast gəlib. Tarixi abidə Hələb və Dəməşq şəhərləri arasındakı yolda yerləşən Maarret-ən-Numan bölgəsində (İdlib vilayəti) aşkar edilib. Bu barədə Oxu.Az Mk.ru-ya istinadla məlumat verir.

Qazıntı zamanı iki ayrı dəfn kamerası və onların hər birində altı daş sarkofaq müəyyən edilib. Kompleksdə yerləşən sütunlardan birinin üzərində xaç simvolu aşkar edilib. İdlibdəki Qədim Abidələrin Mühafizəsi İdarəsinin rəhbəri Həsən əl-İsmail bildirib ki, tapılan gil qablar və şüşə qalıqları da bu abidənin Bizans dövrünə aid olduğunu təsdiqləyir. Qeyd edək ki, İdlib vilayətində 800-dən çox arxeoloji abidə yerləşir. İllərdir davam edən vətəndaş müharibəsi bu tarixi irsə ciddi zərər vurub.

## Britaniyada şok: ölmüş insanları qaynatmağa icazə verilə bilər




Böyük Britaniyada cəsədlərin ənənəvi dəfn və ya kremasiya yolu ilə deyil, alternativ utilizasiyası müzakirəyə çıxarılıb. Qanunvericilik səviyyəsində iki yeni üsulun - qələvi hidroliz (alkalin hidroliz) və kompostlaşdırmanın leqallaşdırılması təklif olunur. Qələvi hidroliz zamanı insan bədəni xüsusi kimyəvi məhlulda 2-18 saat ərzində mayeyə çevrilir. Bu prosesdən yalnız dişlər və sümüklər qalır - onlar toz halına salınaraq ailəyə təhvil verilir. Qalan maye isə birbaşa kanalizasiya sisteminə axıdıla bilər.

Yeni üsul rəsmi sənədlərdə "su ilə dəfn" adlandırılsa da, ictimaiyyətdə daha çox "yuyub axıtma" kimi tanınır. Bu tip dəfn forması artıq Kanada və Avstraliyanın bəzi bölgələrində tətbiq olunur. Middlesex Universitetinin tullantı suları üzrə mütəxəssisi, doktor Lian Landi bildirib ki, bu metodla bağlı aparılan araşdırmalarda mayenin kanalizasiyaya axıdılması nın su keyfiyyətinə heç bir mənfi təsiri aşkarlanmayıb.



## Sevinc bəxş edən məhsullar açıqlandı

"Sosial aktivlik, sevdiyiniz işlə məşğul olmaq, hind toyuğu əti və banan yemək sevinc hormonunun sintezinə kömək edir". Bu barədə "Moskva 24" telekanalına endokrinoloq Natalya Balaşova bildirib. O aydınlaşdırıb ki, sevinc hormonu olan serotonin insan beynində və bağırsaq hüceyrələrində sintezləşdirilir, həmçinin banan və hind toyuğunun tərkibindəki amin turşusundan əmələ gəlir.

N.Balaşova vurğulayıb ki, sosial aktivliyi unutmamaq lazımdır: "Ünsiyyəti və qarşılıqlı yardımı davam etdirin, bu da serotonin hasil olmasına kömək edir. Eyni zamanda, fiziki aktivlik əhval-ruhiyyəni qaldırmağa yardımçı olur".

## Yuxu sağlamlığını və narahatlığını tənzimləyir

Öksəotu güclü əsəb dərmanıdır. Əsəb sistemini gücləndirən və qidalandıran və narahatlıq üçün mükəmməl olan öksəotu stress hormonu kortizolunu azaldır, əsəbləri daha idarə edilə bilən səviyyəyə gətirir.

Öksəotu ənənəvi olaraq əsrlər boyu istirahət və yuxu üçün bitki mənşəli vasitə kimi istifadə edilib. Bu bitkinin kimyəvi komponentləri əsəb sistemini sakitləşdirən nörotransmitterlərin sərbəst buraxılmasına təsir göstərir. Bu, sağlam və rahat yuxuya imkan verir. Bu yolla gecələr xoruldama probleminizin qarşısını ala bilərsiniz.

## Bunları bilirsinizmi?

* Çörçill qadın tualetində doğulub.
* Amerikada dünya əhalisinin 5 faizi, cinayətkarların isə 25 faizi yaşayır.
* Dünya üzrə 5-7 min pələng ev heyvanı kimi saxlanılır.
* Dünyada hotellərin 40 faizi hər gecə boş qalır.
* Qadınların 96 faizi boyunlarından öpülməkdən xoşlanırlar.
* Dünyadakı ən populyar ad Məhəmmədir.
* Göy rəngin sakitləşdirici təsiri var. Buna görə də Twitter, Facebook, Skype kimi şirkətlərin loqosu bu rəngdədir.
* Statistikaya görə, riyaziyyatı zəif bilən adamlar yalan danışmağa daha çox meyillidirlər.
* Oyanmaq və gün ərzində oyaq qalmaq üçün səhər seksi kofedən daha çox təsir edir.
* İçkinin üstündəki etiketi cırırsınızsa, böyük ehtimalla seksual baxımdan təmin olunmursunuz.
* Araşdırmalara görə, ilk öpüş, ilk seksə nisbətən daha yaddaqalandır.
* Bir qadın orta hesabla ən çox 47 saat 15 dəqiqə sirr saxlaya bilər.
* İnsanların 80 faizi yatmamışdan qabaq başlarında real həyatda olmasını istədikləri ssenariləri yazır.

## Stress və yorğunluğu azaldır



Jenşen qədim zamanlardan bəri Çin xalq təbabətində istifadə edilən bitkilərdən biridir. Bu bitkinin insan sağlamlığına çoxlu faydaları və töhfələri var. Jenşenin faydalarını təqdim edirik:

Diabet, baş ağrısı, ürəkbulanma, ağciyər problemləri, astma, artrit, depressiya, diş əti xəstəlikləri, yorğunluq, ishal, həzmsizlik və bir sıra xəstəliklərə faydalıdır.

Həzm sisteminin düzgün işləməsini təmin edir, qəbzlik problemlərin yaranmasının qarşısını alır. Əsəbləri sakitləşdirir, stress və yorğunluq kimi bir çox simptomları azaltmağa kömək edir. Bədəni infeksiyalara qarşı qoruyaraq immunitet sistemini gücləndirir.

Müntəzəm və balanslı şəkildə istehlak edildikdə konsentrasiyaya müsbət təsir göstərir. Zehni qabiliyyətin inkişafına, yaddaşın güclənməsinə fayda verir.

Qan şəkərini tənzimləyir, qaraciyər və ürəyin fəaliyyətinə faydalı təsir göstərir. Həmçinin xolesterin səviyyəsini balanslaşdırır. Tərkibindəki C, B12 vitamini və fosfor sayəsində antioksidan xüsusiyyətlərə malik olan jenşen orqanizmdən toksinlərin çıxarılmasına kömək edir.

Xərçəngə qarşı qoruyucu xüsusiyyətlərə malikdir.

Bir çox tənəffüs xəstəliklərinin qarşısını alır və nəfəs almağı asanlaşdırır.

Bu bitki bədənin enerji istehsalını artırmağa kömək edir. Gün ərzində daha dinamik, aktiv və enerjili qalmağa yardımçı olur. Eləcə də bədəni gücləndirərək yaşlanma əleyhinə təsir yaradır.

Doğuş ağrılarını azaltmaqda təsirlidir. Bundan başqa, saç tökülməsinin qarşısını alır.

Jenşen suda qaynadılıb çay kimi istehlak edilə bilər. Bunun üçün dilimləyərək üzərinə isti su əlavə edib içməzdən etməzdən əvvəl dəmlənməsi üçün bir neçə dəqiqə gözləyin.

Lakin həddindən artıq istehlakı bəzi yan təsirlərə səbəb ola bilər.

## Yatmazdan əvvəl 1 stəkan için: xorultunuz kəsəcək

Xoruldamaq, insanın gecə yuxusunu pozan, hətta ətrafdakıları narahat edən ümumi yuxu problemidir. Bir çox insan müxtəlif müalicə üsullarını sınasa da, ən təsirli üsullardan biri öksəotu çayıdır.

Milli.Az xarici mediaya istinadən öksəotunun sağlamlığınız üçün çoxsaylı faydaları təqdim edir.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Lisenziya N: B 114
SAYI: 1.500
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır.
Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.